RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 47 (8363) BAZAR, 1 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Xəzərlə Adriatik dənizi birləşir

## Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsü ilə reallığa çevrilən əsrin layihəsi - "Cənub qaz dəhlizi" bu ilin sonunda tam olaraq fəaliyyətə başlayacaq

### Daha bir möhtəşəm uğurun astanasında...

14 il öncə tarixdə ilk dəfə olaraq Bakı-Tbilisi-Ceyhan neft boru kəməri vasitəsilə 3 dənizi - Xəzər, Qara dəniz və Aralıq dənizini birləşdirən Azərbaycan indi növbəti möhtəşəm uğurun astanasındadır. 2014-cü ildə Bakıda təməli qoyulan "Cənub qaz dəhlizi" layihəsi 6 ildən sonra - 2020-ci ilin sonunda tam hazır olacaq. Çünki beynəlxalq maliyyə qurumlarının, ABŞ, Böyük Britaniya və Avropa İttifaqının dəstək verdiyi bu layihənin sonuncu seqmenti olan TAP-ın inşası hələ davam edir. Layihənin 92 faizi tamamlanıb.

TAP-ın inşası başa çatdıqdan sonra Xəzər dənizi ilə Adriatik dənizi, yəni Bakı ilə Roma birləşəcək. Yeni hədəfinin astanasında olan Azərbaycan bu boru kəmərləri zənciri ilə təbii qazını Türkiyəyə, qardaş ölkədən isə Avropaya çatdırmaqla nəinki regionun, eləcə də qitənin enerji mənbələri və marşrutlarının şaxələndirilməsinə öz töhfəsini verəcək.

"Cənub qaz dəhlizi" elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün onun ötürücülük gücü öz ilkin ötürücülük gücünün iki misli qədər artırıla bilsin.

Prezident İlham Əliyevin XXI əsrin layihəsi adlandırdığı bu kəmər sistemi Avropanın enerji xəritəsini dəyişəcək köhnə qitədə ən böyük infrastruktur layihəsi hesab olunur.

Ümumiyyətlə, "Cənub qaz dəhlizi"ni əlahiddə bir layihə kimi deyil, bu günə qədər energetika sahəsində Azərbaycanın həyata keçirdiyi böyük strategiyanın davamı kimi dəyərləndirmək lazımdır. Bu layihədən öncə "Bakı-Tbilisi-Ceyhan" strateji xətti irəli sürülüb və məhz bu boru vasitəsilə Xəzər dənizinin karbohidrogen ehtiyatları dünyaya açılıb. Bu nöqteyi-nəzərdən "Cənub qaz dəhlizi" "Bakı-Tbilisi-Ceyhan" layihəsinin davamı kimi qiymətləndirilir.

Burada daha vacib məqam layihənin beynəlxalq əhəmiyyətidir. İndiki reallıqlar şəraitində Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinin vacib şərti olan mənbələrin şaxələndirilməsi istiqamətində "Cənub qaz dəhlizi" hələlik yeganə etibarlı layihədir. Məhz bu layihə vasitəsilə şaxələndirmə istiqamətində Avropa ciddi addımlar atır.

Nəhayət, sözügedən məsələyə kommersiya baxımından yanaşsaq, bir neçə ildən sonra Azərbaycan "Cənub qaz dəhlizi" layihəsindən böyük iqtisadi dividentlər qazanacaq.

**"Cənub qaz dəhlizi"**

- *2014-cü ilin sentyabrın 20-də Bakıda təməli qoyulub;*
- *2018-ci ilin mayın 29-da rəsmi açılış mərasimi keçirilib;*
- *Ümumi dəyəri 40 milyard dollardır;*
- *4 hissədən (Şahdəniz-2, CQBK, TANAP və TAP) ibarət layihədir;*
- *Layihədə 7 hökumət, 11 şirkət iştirak edir;*
- *Ümumi uzunluğu 3500 kilometrdir;*
- *TANAP - 1850 km, TAP - 878 km, CQBK - 691 km;*
- *İlkin mərhələdə Türkiyəyə 6, Avropaya 10 milyard kubmetr qaz nəql ediləcək;*
- *Azərbaycan karbohidrogen satışından 30-50 milyard dollar gəlir əldə edəcək.*

### Dayanıqlı, uğurlu və çiçəklənən inkişafın təminatı

Fevralın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında çıxış edən Prezident İlham Əliyev ümidvar olduğunu bildirib ki, bu ilin sonuna kimi "Cənub qaz dəhlizi" layihəsinin açılışı olacaq.

Azərbaycanın son 30 ildə keçdiyi yola nəzər yetirən dövlət başçısı həyata keçirilən neft-qaz layihələrindən söz açıb: "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", digər kəşfiyyat və hasilat layihələri, "Cənub qaz dəhlizi", mən həmçinin Bakı-Tbilisi-Qars kimi nəqliyyat layihəsini də buraya əlavə edərdim, onların hər biri strateji əhəmiyyətə malikdir. Onların hər biri ölkəmiz və xalqımız, bu layihədə iştirak edən bütün ölkələr üçün dayanıqlı, uğurlu və əminəm ki, çiçəklənən inkişafı təmin edəcəkdir".

*Ardı 3-cü səh.*

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi mətbuat xidmətinin məlumatı

Azərbaycan Respublikası Milli Məclisinə keçirilmiş növbədənkənar seçkilərin nəticələrinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı üzrə iclası martın 5-də saat 10:00-a təyin edilib.

# Siyasi sadiqlik əzmi

## Davamlı tərəqqi, möhkəm sabitlik və yüksək rifah yolu ilə inamla addımlayan Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyur

Fevralın 9-da keçirilmiş seçkilərin nəticələri və altıncı çağırış Naxçıvan Ali Məclisinin birinci sessiyası qədim və zəngin dövlətçilik ənənələrinə malik Muxtar Respublikanın siyasi tarixində yeni inkişaf mərhələsinin əsasının qoyulması ilə yadda qaldı.



Əvvəla, onu qeyd edək ki, Ali Məclisə keçirilən seçkilərdə ümumi seçici siyahılarına daxil edilmiş seçicilərdən 190 min 669 nəfərinin, yəni 70,16 faizinin səsvermədə iştirak etməsi seçkilərin demokratik prinsiplər əsasında mütəşəkkil və şəffaf şəkildə keçirilməsi, naxçıvanlıların ictimai fəallığı, siyasi yetkinliyi və yekdilliyi demək idi. Seçkilərdə Yeni Azərbaycan Partiyası namizədlərinin qələbə qazanması isə Ümummilli Lider Heydər Əliyev ideyalarının daha bir təntənəsidir.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında deputatların açıq səsvermə yolu ilə yekdilliklə Vasif Talıbovu yenidən Ali Məclisin Sədri seçmələri isə təkcə deputatlıq səlahiyyətlərini icra etmək, seçici həvaləsini yerinə yetirməklə onların etimadını doğrultmaq deyil, bütünlükdə muxtar respublika sakinlərinin dərin inam və sevgisindən yoğurulan siyasi iradəsini ifadə etmək idi. Bu, qərinəyə yaxın bir dövrdə Ulu Öndər Heydər Əliyev ideyalarına söykənərək çətin sınaqlardan qalib çıxan, reallıqları ilə özünü doğruldan bir siyasəti qətiyyətlə müdafiənin növbəti təzahürü idi.

### Tarixi gerçəkliyin işığında

İctimai-siyasi hadisələrə tarixi gerçəkliyin işığında nəzər saldıqda görürük ki, muxtar respublikada mühüm siyasi əhəmiyyətli hadisə olan Ali Məclisə seçkilər düz 96 il öncə Azərbaycan SSR MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvanın muxtariyyət qazandığı günə təsadüf edir. Bunu isə muxtariyyətdən müstəqilliyin inkişaf, quruculuq və sabitlik yoluna gedən yolun uğurlu məntiqi davamı kimi xarakterizə etmək olar. Ermənistanın Naxçıvanı Azərbaycandan qoparmaq kimi məkrli siyasətinə cavab olaraq 1921-ci ilin yanvar ayında keçirilən rəy sorğusu zamanı muxtar respublika əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının Azərbaycan SSR tərkibində qalmasına tərəfdar çıxmışdı. Məhz Naxçıvan əhalisinin inadlı mübarizəsi muxtar respublikanın bugünkü inkişafı üçün zəmin yaradacaq ərazi statusunu dəqiqləşdirmişdi. Və ümumiyyətlə, siyasi strateji məkan olan Naxçıvan tarixin keşməkeşlərində, təbəddülatlarında dəfələrlə siyasi həmrəylik, birlik nümayiş etdirərək tarixi sınaqlardan üzüağ çıxmışdır.

Ötən əsrin 90-cı illərində Naxçıvan son dərəcə çətin bir şəraitdə yaşayırdı. O dövrdə iqtisadi tənəzzülə, aclıq və səfalətə, xain ermənilərin diş qıcayaraq aramsız hücum etmələrinə, ölkə rəhbərliyinin ögey münasibətinə rəğmən naxçıvanlılar bugünkü firavan günlərin diləyi ilə sabaha ümidlə baxmış, sınmamış, sarsılmamış, dahi şəxsiyyət Heydər Əliyevin xalqı xilas edəcəyinə inanmışlar. Ulu Öndər 1990-cı ilin 22 iyul tarixində yüzminlik bir izdiham tərəfindən coşqu və məhəbbətlə qarşılanmışdır. Ümummilli Liderin ətrafında sıx birləşməklə xalq-rəhbər birliyinin ideal nümunəsinin əsasını qoyan naxçıvanlılar birlik, həmrəylik, siyasi fəallıq kimi ənənələrə varislik prinsipini bu gün də yaşatdıqlarını sübut edirlər.

Ulu Öndər uzaqgörən siyasəti ilə Naxçıvanı yaşamaq uğrunda mübarizədən qalib çıxararaq, məhvolma faciəsindən xilas edərək böyük Vətənin qurtuluş və nicatı naminə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra bu qədim diyarı layiqli, etibarlı əllərə əmanət etdi. Ötən illər ərzində bütün sahələrdə qazanılan heyrətamiz uğurlar məhz Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi kimi tarixə həkk edildi.

### Arzular gerçəkləşəndə

Naxçıvan 1995-ci ildən etibarən məhz Ümummilli Liderin arzuladığı dinamik inkişaf yolu ilə addımlamağa başladı. Qızıl dəyərində olan halal ruzili torpaqlarını insanlara yenidən qaytarıb, onları halal zəhmətə, doğma yurd yerinə bağlamaq məqsədilə düşünülmüş siyasət həyata keçirildi. İnsanların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl işlərin görülməsi, özünüməşğulluq strategiyasının reallaşdırılması ilə muxtar respublikada sosial-iqtisadi inkişafın əsası qoyuldu.

Beş min hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələrinin qurulması, yeni artezian quyularının qazılması və kəhrizlərin bərpa olunması bir vaxtlar baxımsızlıq, şəraitsizlik ucbatından ilan mələyən səhralıqlara çevrilmiş torpaqları cana gətirdi. Vaxtilə şoranlıqdan cadar-cadar olmuş "ölü" torpaqlar bol bəhrəsi ilə qaytardı minnətdarlıq borcunu.

*Ardı 3-cü səh.*

## Azərbaycan-Türkiyə müttəfiqliyi yeni mərhələyə yüksəlir

### İlham ƏLİYEV: "Bizim birliyimiz əbədidir və təbii ki, biz öz gələcəyimizi bu möhkəm təməl üzərində qururuq"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana son səfəri iki ölkə arasındakı münasibətlərə və məlum həqiqətlərə yeni işıq saldı. Bakıda keçirilən görüşlərdən, aparılan danışıqlardan, verilən mesajlardan və imzalanan sənədlərdən bir daha aydın oldu ki, iki qardaş dövlət arasındakı əlaqələrin dünyada doğrudan da analoqu yoxdur.**

### Dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr

Azərbaycan-Türkiyə münasibətlərinin məğzində hər iki dövlətin xalqlarının eyni soy-kökə, vahid mənşəyə və tarixə, eləcə də gələcəklə bağlı oxşar inkişaf strategiyasına malik olması kimi mühüm amillər dayanır. Elə bu səbəblər, xüsusən də milli və dini ortaqlıq məsələsi Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında yeni müstəvidə formalaşan əlaqələrin nüvəsini təşkil etmişdir.

*Ardı 2-ci səh.*

### İxrac sifarişçilərinin əsas artım səbəbi də məhz budur




## Azərbaycan məhsulları xarici bazarda keyfiyyətinə görə alınır

Ötən il ölkəmiz üçün iqtisadi və sosial sahələrdə əldə edilən nailiyyətlərlə yadda qaldı. Dövlətin qarşıya qoyduğu bütün iqtisadi vəzifələr uğurla icra edildi. Sözsüz ki, bu nəticələrin qazanılmasında aparılan islahatlar mühüm rol oynadı. Xüsusilə qeyri-neft sektorunda məhsul istehsalının və ixracının artması bunun məntiqi nəticəsidir.

Keçən ilin yanvar-dekabr aylarında qeyri-neft sektoru üzrə 1 milyard 954 milyon dollar dəyərində məhsul ixrac olunmuşdur. Bu isə 2018-ci illə müqayisədə 15,7 faiz artım deməkdir. Hesabat dövründə Rusiyaya 11,5, Türkiyəyə 16,5, İsveçrəyə 32,2, Gürcüstana 27,8, Ukraynaya 24,6 faiz məhsul satışı artmışdır.

Ötən il ixrac edilən qeyri-neft məhsullarının sırasında pomidor (189,3 milyon dollarlıq) birinci sırada qərarlaşıb. Siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal edilməmiş formalarda) 172,4 milyon dollarlıqla ikinci, qabığı təmizlənməmiş meşə fındığı 124,2 milyon dollarlıqla üçüncü olub. 2019-cu ildə həmçinin pambıq mahlıcı, xurma, elektrik enerjisi, ilkin formalı polipropilen, metanol (metil spirti), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, emal olunmamış aşqarlanmamış alüminium də qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ildə meyvə-tərəvəz ixracının dəyəri 605,8 milyon, plastmas və onlardan hazırlanan məmulatlar - 179,4 milyon, alüminium və ondan hazırlanan məmulatlar - 128 milyon, pambıq lifi - 124 milyon, kimya sənayesi məhsulları - 102,9 milyon, elektrik enerjisi - 76,8 milyon, qara metallar və onlardan hazırlanan məmulatlar - 57,6 milyon, pambıq ipliyi - 30,2 milyon, şəkər - 26,9 milyon, alkoqollu və alkoqolsuz içkilər - 23,7 milyon dollar təşkil etmişdir.

*Ardı 2-ci səh.*

## Referendum keçirmək qərarı Paşinyana nifrəti artırır

### Ermənistandakı ağır sosial-iqtisadi və siyasi vəziyyət etirazların səngiməsinə imkan vermir

Nikol Paşinyanın hakimiyyəti ələ keçirməsindən təxminən 2 il ötməsinə baxmayaraq, baş nazir nə qədər çək-çevir etsə də, nəinki ölkə ictimaiyyətinin, hətta yaxın tərəfdarlarının da ümidlərini doğrulda bilmir. Hökumət başçısının vaxtilə verdiyi vədlər söz olaraq qalır, cəmiyyətdə siyasi ab-havanı sabitləşdirmək, milli iqtisadiyyatı irəli aparmaq üçün ölkədə elə bir təsirli tədbir görülmür. Paşinyan indiki halda boşboğazlıqdan o tərəfə keçmir, xalq isə davam edən siyasi kataklizmləri müşahidə etmək məcburiyyətində qalır.

Bunlara paralel olaraq son günlərdə Ermənistanda Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında yaranan qarşıdurma artıq daha gərgin mərhələsini yaşamaqdadır. Xatırladaq ki, bir neçə həftə bundan əvvəl uzunmüddətli mübarizədən sonra Ermənistan parlamentinin təcili iclasında Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin istefasına dair referendum keçiriləcəyi barədə qanun layihəsi təsdiq edilmişdi.

Aprelin 5-də keçiriləcək referendumda əksər siyasi qüvvələr iştirak etmək istəmədiklərini elan etdikləri halda Paşinyan geri çəkilmək niyyətində deyil.

"Joxovurd" qəzeti yazır ki, vəziyyət hər an dəyişə bilər. Məsələ bundadır ki, Paşinyanın xalqı yenidən hərəkətə gətirib kortəbii şəkildə öz iradəsinə itaət etdirməsi ehtimalı azdır.

*Ardı 3-cü səh.*



# Azərbaycan-Türkiyə müttəfiqliyi yeni mərhələyə yüksəlir

## İlham ƏLİYEV: "Bizim birliyimiz əbədidir və təbii ki, biz öz gələcəyimizi bu möhkəm təməl üzərində qururuq"

*Əvvəli 1-ci səh.*

Münasibətlərin inkişafında, qlobal əhəmiyyət daşıyan məsələlərlə bağlı qərarların qəbulunda hər iki dövlət, ilk növbədə, məhz bu amillərə istinad edib. Bunun nəticəsidir ki, Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir.

Təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Türkiyə münasibətləri bu gün həm də strateji önəm daşıyır. Tarixdə nadir hallarda görünən bu cür yaxınlıq hər iki ölkəyə etimad və firavanlıq verir və bu münasibətlər xoş və dar günlərdə daimi xarakter daşıyır. Azərbaycan və Türkiyə bütün sahələrdə uğurla əməkdaşlıq edirlər. Prezident Rəcəb Tayyib Ərdoğanın səfəri zamanı imzalanmış sənədlər, aparılan danışıqlar isə bir daha iki ölkə arasında olan sıx birliyi nümayiş etdirdi.

### Əlaqələrə töhfə verən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası

Türkiyə Prezidentinin səfərində əsas məqsədlərdən biri Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında iştirak etmək idi. Xatırladaq ki, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası mövcud əlaqələrin bütün sahələrdə daha da dərinləşdirilməsi, iki ölkənin maraqlarına uyğun regional və beynəlxalq məsələlərdə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə 2010-cu il sentyabrın 15-də İstanbul şəhərində imzalanmış Birgə Bəyannaməyə əsasən yaradılıb. Şuranın mütəmadi keçirilən iclasları iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verib. İndiyədək İzmir, Qəbələ, Ankara və Bakıda keçirilmiş iclaslarda bütün sahələrdə əlaqələrə nəzər yetirilib və bir çox sahələrdə əməkdaşlığa dair mühüm sənədlər imzalanıb.

Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında iki dövlət arasında bir sıra önəmli məsələlər müzakirə edildi. Aparılan müzakirələr və əldə olunan razılaşmalar göstərdi ki, iki dövlət arasında əlaqələr strateji xarakter daşıyır və dostluq-qardaşlıq münasibətləri üzərində qurulub. Prezident İlham Əliyev mətbuata bəyanatında bu barədə deyib: *"Hər bir görüşdən sonra Türkiyə-Azərbaycan əlaqələrinə yeni təkan verilir və bu əlaqələr bu gün ən yüksək zirvədədir. Bu gün keçirilmiş Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII toplantısı bir daha onu göstərdi ki, bizim fikirlərimiz bütün məsələlərdə birdir, niyyətimiz, amalımız da birdir. Bu da ondan ibarətdir ki, Türkiyə-Azərbaycan dostluq-qardaşlıq əlaqələri bundan sonra da uğurla inkişaf etsin və bütün sahələri əhatə etsin".*

### Qarsdan Naxçıvana dəmir yolu xətti

Ötən 16 ildə həm Azərbaycan, həm də Türkiyə çox böyük inkişaf yolu keçib. Təbii ki, bu inkişaf həm də iki ölkənin münasibətlərində özünü göstərir. Bu 16 ildə məhz Azərbaycanın təşəbbüsləri sayəsində Türkiyə ilə energetika sahəsində əməkdaşlıq dərinləşib, o cümlədən iki türk dövləti Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi dəmir tellərlə bir-birinə daha sıx bağlanıb. Bunlardan başqa, ideya təşəbbüsü yenə də Azərbaycana məxsus olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti bu birliyin daha möhtəşəm görüntüsünü yaradır. Birgə əməkdaşlıq və təşəbbüs ilə inşa edilən və XXI əsrin layihəsi adlandırılan "Cənub qaz dəhlizi"nin əsas hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması da Türkiyə və Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığın növbəti nümunəsidir. Bu layihələr iki ölkənin regional qüvvəsini artıraraq qlobal mövqelərini möhkəmləndirməyə xidmət edir. Bu kəmər Azərbaycanla Türkiyə arasındakı sosial, iqtisadi və digər sahələrdə indiyədək mövcud olan qardaşlıq münasibətlərinə əlavə dəstəkdir. Bütün bu layihələrin gerçəkləşməsində Azərbaycanın bu bölgədə keçirdiyi müstəqil siyasət və Prezident İlham Əliyevin möhkəm iradəsi mühüm rol oynayıb.

Lakin görünən odur ki, Azərbaycan və Türkiyə bununla kifayətlənmək fikrində deyillər. Belə ki, Bakıda imzalanan sənədlərdən biri məhz iki dövlət arasında yeni dəmir yolu xəttinin çəkilişi barədədir. "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu" hələlik bu istiqamətdə ilk addımdır. Bu sənədlərdə tərəflər Türkiyədən Naxçıvana yeni dəmir yolu xəttinin çəkilişi ilə bağlı ümumi razılıqlarını ifadə ediblər. Təbii ki, belə bir istək varsa, deməli, hökmən reallaşacaq. Çünki hər iki dövlət əlaqələrinin daha da genişlənməsi üçün daim yüksək siyasi iradə nümayiş etdirir. Bu dəmir yolu xətti layihəsinin həyata keçirilməsi Naxçıvanın ixrac imkanlarını artıracaq və bölgəni mühüm tranzit mərkəzinə çevirəcək.

Başqa bir mühüm saziş vizasız səyahət müddətinin uzadılmasıdır. İndiyə qədər iki ölkə vətəndaşları qarşılıqlı olaraq 30 günə qədər turist kimi vizasız səyahət edə bilirdilər. İmzalanan yeni sazişlə bu müddət 90 günə qədər artırılıb.

Azərbaycan və Türkiyə bütün sahələrdə uğurla əməkdaşlıq edirlər. Rəcəb Tayyib Ərdoğanın səfəri zamanı imzalanmış sənədlər, aparılan danışıqlar bir daha iki ölkə arasında olan sıx birliyi nümayiş etdirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim birliyimiz əbədidir və təbii ki, biz öz gələcəyimizi bu möhkəm təməl üzərində qururuq.

Bu gün Azərbaycanla Türkiyəni yalnız ortaq milli dəyərlər birləşdirmir. İki türk dövlətini həm də onların maraqlarına xidmət edən ortaq layihələr və bütün beynəlxalq platformalarda hər bir məsələyə dair ortaq mövqenin olması birləşdirir. Bu isə onu göstərir ki, Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bütün sahələrdə uğurla və inamla davam etdirilir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan məhsulları xarici bazarda keyfiyyətinə görə alınır

## İxrac sifarişçilərinin əsas artım səbəbi də məhz budur




*Əvvəli 1-ci səh.*

2018-ci illə müqayisədə 2019-cu ildə pambıq lifinin ixracı 54, plastmas və ondan hazırlanan məmulatların ixracı 51, alkoqollu və alkoqolsuz içkilərin ixracı 46, kimya sənayesi məhsullarının ixracı 32, pambıq ipliyinin ixracı 27, elektrik enerjisi ixracı 17, alüminium və ondan hazırlanan məmulatların ixracı 14, şəkər ixracı 8, meyvə-tərəvəzin ixracı 8 faiz artmışdır.

İndi Azərbaycan dünyaya kosmik məhsul və ya xidmət ixrac edən azsaylı ölkələrdəndir. Ötən ilin yanvar-dekabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 27 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. ASC-nin bu növ xidmətdən əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizinə bərabər olmuşdur. "Azərkosmos" təkcə ötən ilin dekabr ayında 22 ölkəyə 2,9 milyon dollar dəyərində xidmət göstərmişdir.




Ötən il habelə Azexport.az portalına 595,7 milyon dollar dəyərində ixrac sifarişi daxil olmuşdur ki, bu da 2018-ci illə müqayisədə 15,9 faiz artım deməkdir. Təkcə dekabr ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri 63,4 milyon dollar olmuşdur ki, bu da 2018-ci ilə nisbətən 80,6 faiz çoxdur. Həmin ay portala ən çox ixrac sifarişi fındıq ləpəsi, yumurta, tütün, şərab, tikinti materialları, qənnadı məhsulları, xurma, toyuq əti, pambıq yağı, çay, alma, bal, meyvə şirəsi, mühərrik yağı, kosmetik vasitə, mebel dəsti, soğan və s. mallar üzrə olmuşdur. Ümumilikdə 2017-2019-cu illərdə Azexport.az portalına dünyanın 141 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 milyard 584,8 milyon dollar təşkil etmişdir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Dövlət işgüzar insanlara hər zaman dəstək olur

Əlağa Əsədov Laçın rayonunun Dambulaq kəndindəndir. Dağlıq Qarabağ müharibəsi başlayandan onun da həyatı əzab-əziyyət içində keçib. Ermənilər Laçına hücum edəndə digər oğullar kimi, o da silaha sarılaraq düşmənə qarşı aparılan döyüşlərdə iştirak edib, bir dəfə yaralanıb. Xəstəxanada müalicə olunduqdan sonra yenidən döyüşlərə atılıb. 1988-ci ildən 1994-cü ilədək Laçın, Tərtər və Ağdərə uğrunda gedən döyüşlərdə iştirak edib, Ağdərənin Mehmanə kəndində mühasirəyə düşüb. Lakin mühasirəni yarmaqla özünü və əsgər yoldaşlarını xilas edib.



Laçın rayonu ərazisində döyüşlərin şiddətli getdiyini görən Əlağa Əsədov həyat yoldaşını və 4 övladını Ağdərəyə - qohumlarının yanına aparıb. Ancaq çox çəkməyib ki, azğınlaşmış düşmən Laçını işğal etdikdən sonra Ağdərəyə hücum edib. Vəziyyət ağır olduğundan Əlağa məcbur qalıb ailəsini Bərdəyə gətirib. Atəşkəs əldə olunduqdan sonra isə silahı yerə qoyaraq ailəsinin yanına qayıdıb. Beləcə iki dəfə qaçqınlıq həyatı yaşayan Əlağa Əsədov dinc həyata başlayıb. İndi 64 yaşlı Əlağanın Goranboy rayonunun Qaraçinar kəndində hər bir şəraiti olan evi var. Həm işgüzar, həm də ailəcanlı olan Ə.Əsədov gecəni gündüzə qataraq ailəsinin ehtiyaclarını ödəyir.



Söhbət zamanı dedi ki, "Laçının Dambulaq kəndində məktəb direktoru idim. Halal zəhmətlə kənddə ikimərtəbəli ev tikdirmişdik. Həyətimizdə hər cür meyvə ağacı vardı. Böyük təsərrüfat da yaratmışdıq. Mal-heyvan, toyuq-cücə saxlayırdıq. Heç nədən korluq çəkmirdik. Allah düşmənə lənət eləsin. Nə idi bizim günahımız ki, səfalı kəndimizdən, neçə illərin əziyyəti ilə hasilə gətirdiyimiz evimizdən didərgin düşdük".

Əlağa Əsədov dövlətin dəstəyi ilə bu gün də ailəsinə gün-güzəran qurub. Ölkə rəhbəri İlham Əliyevin yoxsulluğun azaldılması istiqamətində həyata keçirdiyi islahatları ürəkdən bəyənən və onu dəstəkləyən Əlağa deyir ki, indi ölkədə işləyən adam üçün istənilən şərait var:

"Elə özümü buna misal çəkə bilərəm. Eşitdim ki, dövlət başçısının tapşırığına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan özünüməşğulluq proqramı çərçivəsində işsiz və işaxtaran vətəndaşlara mal və materialların verilməsinə başlanılıb. Çox sevindim. Nazirliyin rayon şöbəsinə ərizə ilə müraciət etdim. Çox çəkmədi ki, mənə 20 baş keçi verdilər. İndi onların artırılması ilə məşğulam. Keçiləri saxlamaq üçün tövlə tikmişəm. Sağlıq olsun, yaxın bir neçə ildə onların sayını 50 başa çatdırmaq fikrindəyəm. Bundan başqa, həyətdə çoxlu toyuq-cücə də saxlayırıq".

Qeyd edək ki, ölkənin hər yerində olduğu kimi, Goranboy rayonunda da məskunlaşan məcburi köçkünlər dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Onlardan 179 nəfəri özünüməşğulluq proqramına cəlb edilmişdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# GUAM-a üzv ölkələr arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

Kiyevdə GUAM-ın Milli Əlaqələndiricilər Şurasının 52-ci iclasında quruma üzv ölkələr arasında iqtisadi əlaqələrin gücləndirilməsi qərara alınıb. AZƏRTAC xəbər verir ki, iclasda GUAM çərçivəsində siyasi, iqtisadi əməkdaşlığın perspektivləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin gücləndirilməsi müzakirə olunub.

Tədbirdə iştirak edən Azərbaycan Xarici İşlər nazirinin müavini Mahmud Məmmədquliyev bildirib ki, bu il Azərbaycanın quruma sədrliyi dövründə əsasən infrastruktur, nəqliyyat, enerji layihələrinin həyata keçirilməsi istiqamətində bir sıra sənədlərə baxılacaq.

İclasda vurğulanıb ki, quruma üzv ölkələr beynəlxalq təşkilatlarda koordinasiyalı işini daha da təkmilləşdirməlidir.



# Siyasi sadiqlik əzmi

## Davamlı tərəqqi, möhkəm sabitlik və yüksək rifah yolu ilə inamla addımlayan Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyur



*Əvvəli 1-ci səh.*

Bu gün artıq 62 min hektar əkinəyararlı torpaqlardan istifadə olunur və muxtar respublika özünü ərzaqla tam təmin edə bilir. Əvvəllər əhalinin gündəlik tələbatını qismən də olsa ödəyə bilmək əsas şərt idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olunur. Artıq ölkə bazarlarında yetərincə tələbat yaranan yerli məhsullarımız müxtəlif Avropa və Şərq ölkələrinə ixrac edilir, iqtisadi əlaqələr genişləndirilir. İxrac potensialının artırılması, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması muxtar respublikada sahibkarlıq mühitinin formalaşmasına xidmət edən, düzgün qurulmuş dövlət-sahibkar münasibətlərinin uğurlarıdır. Muxtar respublikada mikrosahibkarlığın, ailə təsərrüfatlarının inkişafına stimul verilməsi əhalinin özünüməşğulluğunun təmin edilməsi, keyfiyyətli, ekoloji sağlam yerli ərzaq məhsullarının istehsal çeşidliliyinə və kəmiyyət artımına nail olmağa xidmət edir. Bu siyasət həm də onu təlqin edir ki, böyük iqtisadi uğurlara gedən yol mikrocəmiyyət sayılan ailədə düzgün iqtisadi idarəetmədən, səmərəli iqtisadi təmərküzləşmədən başlanır. Nəticədə bu gün diyarımızda 1000-dən çox kiçik və böyük ailə təsərrüfatı fəaliyyət göstərir. Vaxtilə iqtisadi asılılıqdan çökməkdə olan diyarda daxili tələbatın yerli istehsal hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin aradan qaldırılması istiqamətində indi xeyli uğurlar qazanılıb.

Bir vaxtlar enerji böhranı nəticəsində muxtar respublikanın həyat ritmi tamamilə pozulmuş, gündüzü qaranlıq zülmətə dönmüşdü. Qonşu ölkələrdən enerji nəql olunsa da, ən mühüm strateji obyektlər belə normal fəaliyyət göstərə bilmirdi. Belə bir şəraitdə isə təbii ki, heç bir iqtisadi inkişafdan söz gedə bilməzdi. Enerji təhlükəsizliyinin Naxçıvan kimi geostrateji bir məkan üçün nə dərəcədə prioritet məsələ olduğunu siyasi uzaqgörənliklə düşünən muxtar respublika rəhbərinin bu istiqamətdə çoxillik gərgin fəaliyyətinin nəticəsidir ki, hazırda Naxçıvanda generasiya gücü 220 meqavata yaxındır. Həqiqətən də, inanılmazdır ki, heç bir daxili enerji resursu olmayan Naxçıvan bu gün enerji ixracatçısına çevrilib. Alternativ enerji mənbələrindən istifadəyə görə dünyada nümunə sayılan muxtar respublika Ordubad Su Elektrik Stansiyası istifadəyə verildikdən sonra öz enerji tələbatını 100 faiz bərpaolunan enerji hesabına ödəyəcəkdir. Mənfur ermənilər tərəfindən blokadaya alındığına görə illərdir mavi yanacaq üzünə həsrət qalan bu diyarın 2005-ci ildən etibarən təbii qaza olan tələbatı da ödənilir. Sevindirici haldır ki, çox çətin relyefə malik olan ən ucqar dağ kəndlərinin sakinləri də daxil olmaqla, bu gün 90 minə yaxın abonent mavi yanacaqla təmin olunur.

Tarixən aqrar profilli məkan kimi qəbul edilən muxtar respublika yeni istehsal sahələri yaradılmaqla sənaye diyarına çevrildi. Bu gün artıq burada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi istehsalçıların xarici bazarlara çıxış imkanlarını artırmışdır. Sənayeləşmə prosesi geniş vüsət almış, rəqabətədavamlı və ixracyönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılmış, yerli istehsalda çeşidliliyə və keyfiyyətliliyə nail olunması xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir. Xatırladaq ki, bu gün muxtar respublikada ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötüb. 2019-cu ilin sonlarında ilk dəfə olaraq muxtar respublikada sənaye məhsullarının istehsal həcmi 1 milyard manatı ötərək xarici ticarət dövriyyəsinin həcmi yarım milyard dollara yaxınlaşıb.

1995-ci illə müqayisədə ümumi daxili məhsul istehsalı 64,9 dəfə, sənaye məhsulunun ümumi həcmi 111,1 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 337,6 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 13,2 dəfə, xarici ticarət dövriyyəsi 26,2 dəfə, əhalinin gəlirləri 59,9 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 30,5 dəfə artmışdır. 1995-ci ildən 2019-cu ilin sonuna 97 min 443 iş yeri yaradılmışdır.

Beş milyon manat vəsait hesabına yaradılacaq Şərur Sənaye Məhəlləsi, həmçinin Xalça fabriki kimi yeni prioritet istehsal sahələri muxtar respublikanın iqtisadi və sosial məsələlərinin həllinə, bütövlükdə onun perspektiv inkişafına mühüm təsir göstərəcəkdir. Həyata keçiriləcək düşünülmüş iqtisadi strategiya muxtar respublikanın özünəməxsus inkişaf yoluna görə daha da fərqlənməsinə səbəb olacaq.

Ötən dövrdə Naxçıvanda ixrac potensialının artırılması istiqamətində qazanılan uğurlar, ixrac hesabına son 10 ildə xarici ticarət dövriyyəsində müsbət saldonun yaranması cari ilin muxtar respublikada "İxrac ili" elan olunması ilə nəticələnib. Bu, diyarımızda yeni ixrac imkanlarının yaranmasına, sahibkarların sağlam rəqabət mühiti hesabına öz fəaliyyətlərini daha da genişləndirmələrinə səbəb olacaq. İnvestisiya və innovasiya cəlbediciliyinin uğurlu nəticəsidir ki, muxtar respublika ölkəmizin iqtisadi regionlarının investisiya reytinqində 2017 və 2018-ci illərdə ardıcıl olaraq liderlik edib. Bir sözlə, Naxçıvan bütün dünyada daha möhkəm əsaslarla inkişaf edən bir diyara çevrilib.

Muxtar respublika rəhbərinin çoxillik məqsədyönlü siyasi fəaliyyətini səciyyələndirən bir mühüm cəhət də "elm və təhsil inkişaf etmədən heç bir iqtisadi tərəqqiyə, sosial inkişafa, hərbi uğurlara nail olmaq mümkün deyil" aksiomudur.

Elmi inkişafa, güclü elmi kadr potensialının formalaşmasına göstərilən hərtərəfli qayğı 2019-cu il 7 sentyabr tarixli sərəncam ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması ilə nəticələndi. Bu fond mühüm elmi-tədqiqat proqramları və layihələrinin qrant şəklində maliyyələşdirilməsi, alimlərin elmi fəaliyyətlərinin stimullaşdırılması, elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsi, bu potensialın imkanlarından iqtisadiyyatın inkişafında səmərəli istifadə kimi ümdə mərama xidmət edir.

Ötən illərdə aparılan uğurlu gənclər və təhsil strategiyası muxtar respublikada innovasiyaların tətbiqi üçün hərtərəfli şərait yaradıb. Ali Məclis Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" sərəncamı elmdə nəzəriyyə ilə təcrübənin çulğalaşmasına, təhsil müəssisəsi ilə gələcək fəaliyyət obyektləri arasında səmərəli əməkdaşlıq mexanizmi yaratmaq yolu ilə dövlət kadr siyasətinin daha da inkişafına nail olmaq baxımından bu gün öz bəhrəsini verməkdədir.

Sosial-iqtisadi, texniki və intellektual potensialın möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı, kompleks və sistemli işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli sərəncamı isə innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, elmi nailiyyətlərin və yeni texnologiyaların sahibkarlıq strukturlarına ötürülməsi, investorlar üçün cəlbedici ola biləcək layihələrin hazırlanması, yaradıcı düşüncə və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaq kimi prioritet məsələlərin həllinə xidmət edir.

Müasir informasiya texnologiyalarının geniş tətbiqinə nail olmaq, muxtar respublikanı informasiya blokadasından xilas etmək məqsədilə görülən ardıcıl işlər sayəsində Naxçıvanın hazırda beynəlxalq trans-Avroasiya fiber-optik magistrallarına 2, qlobal internet sisteminə 4 tərəfli çıxışı vardır. Ötən il yaradılan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu isə heç şübhəsiz ki, informasiya-məlumatlandırma, təbliğat işinin daha məqsədyönlü və uğurlu təşkilinə öz töhfəsini verəcək.

Mənfur ermənilərin tarixən əsas hədəflərindən biri, necə deyərlər, iştah dişi Naxçıvan olub. Düşmənlə üz-üzə, özü də blokada vəziyyətində dayanması muxtar respublikada bütün sahələri inkişaf etdirməklə paralel olaraq müdafiə qüdrətini də artırmağı günün aktuallığına çevirib. Ümummilli Liderimizin ordu quruculuğu siyasətinin davamı olaraq Naxçıvan Muxtar Respublikasında ordu, birləşmə və hissələr üçün nümunəvi xidmət şəraitinin yaradılması, güclü maddi-texniki təminat, dövlət-xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırıb. 2017-ci il 18 Oktyabr - Dövlət Müstəqilliyi Günündə Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad, ötən il Azərbaycan və Türkiyənin silahlı qüvvələrinin "Sarsılmaz qardaşlıq - 2019" birgə döyüş atışlı taktiki təlimləri ordumuzun qüdrətini bir daha nümayiş etdirdi. Nəhayət, müzəffər ordumuz "Uğurlu Naxçıvan əməliyyatı" kimi tarixə düşən Günnüt zəfərinə imza atdı, öz döyüş qabiliyyətini ərazidəki hakim yüksəkliklərdə etibarlı müdafiə sistemi qurmaqla təsdiqlədi.

Doğma diyarımızda əldə olunan hərtərəfli inkişafda mühüm rol oynayan başlıca amillərdən biri də burada sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması, Naxçıvanın təhlükəsiz, nizam-intizamlı, cinayətsiz regiona çevrilməsidir. Təkcə cinayətkarlığın dinamikasına nəzər yetirəndə 2018-ci illə müqayisədə 2,5 dəfə azalmanın müşahidə olunması buna əyani sübutdur.

Qazanılan uğurlar Naxçıvanın beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilməsində də mühüm rol oynayır. Tarixi Böyük İpək yolu üzərində yerləşən bu məkan ölkəmizin, ümumilikdə isə Şərqin əsas tranzit qovşağı kimi bu gün də öz dəyərini qoruyub saxlayır. Ötən il Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında önəmli strateji əhəmiyyətə malik "Dostluq dəhlizi" adlı yeni hava dəhlizinin açılması, bu günlərdə isə Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmiryol nəqliyyat xəttinin və İqdır-Naxçıvan qaz kəmərinin çəkilməsi ilə bağlı razılaşma əldə edilməsi bu məkanın blokadadan tamamilə xilas olması deməkdir.

Saymaqla bitməyən bu uğurlar Naxçıvanın əsrin dörddəbiri kimi tarixi mərhələyə sığmayacaq, dünya siyasət tarixinə blokadada inkişaf modeli kimi həkk olunan siyasi mənzərəsinin yalnız müəyyən konturları, başlıca aspektləridir. Bu möhtəşəm uğurlar Heydər Əliyev siyasətinə sadiqliyə, bu ideyaların davamlı gerçəkləşdirilməsi prinsipinə əsaslanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edərkən Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafını belə qiymətləndirmişdir: "Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır".

Bu tarixi görüş həm də ölkədə idarəetmə sahəsində ciddi islahatların aparıldığı, bu sahədəki mövcud nöqsanlara qarşı sərt mübarizə tədbirlərinin görüldüyü bir vaxtda muxtar respublika rəhbərinin çoxillik siyasi fəaliyyətinin ölkə rəhbəri qarşısındakı uğurlu hesabatı idi.

### Yeni siyasi mərhələ, qətiyyətli başlanğıc

Vasif Talıbov altıncı çağırış Naxçıvan Ali Məclisinin birinci sessiyasında çıxış edərək Muxtar Respublikanı daha böyük uğurlara aparacaq yeni inkişaf mərhələsinin əsas istiqamətlərini diqqətə çatdırmışdır: "Biz qarşıdakı dövrdə də Ulu Öndərin yoluna sadiq qalaraq Naxçıvan Muxtar Respublikasının inkişafını təmin etməli, əhalinin yaşayış səviyyəsini daha da yaxşılaşdırmalı, yeni istehsal sahələri və bununla bərabər, iş yerləri yaratmalı, sosial sahələrin inkişafına diqqəti artırmalıyıq. Büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarət daha da gücləndirilməli, vergi və rüsumların vaxtında ödənilməsi təmin edilməli, etibarlı maliyyə nəzarəti sistemi formalaşdırılmalıdır. Həmçinin muxtar respublika əhalisinin maliyyə resurslarına çıxış imkanları asanlaşdırılmalı, real sektorun inkişafına yönləndirilən kredit növlərinə üstünlük verilməli, verilmiş kreditlərin təyinatı üzrə istifadəsinə və vaxtında qaytarılmasına nəzarət olunmalıdır. 2020-ci ilin muxtar respublikada "İxrac ili" elan edilməsi qarşıya mühüm vəzifələr qoyur. Ona görə də iqtisadi inkişafın prioritet istiqaməti kimi muxtar respublikanın xarici ölkələrlə qarşılıqlı ticarət əlaqələri daha da genişləndirilməli, xüsusilə də idxalın həcminin azaldılması və ixrac potensialının gücləndirilməsi istiqamətində əsaslı işlər görülməlidir. Mövcud istehsal sahələrinin genişləndirilməsi və ixracyönümlü istehsal müəssisələrinin yaradılması davam etdirilməli, süni qiymət artımının qarşısı alınmalıdır".

Həmin çıxışda ərzaq təhlükəsizliyi, sığorta işinin təkmilləşdirilməsi, təbiətin mühafizəsi, ekologiyanın qorunması və yaşıllıqların artırılması, elm və təhsilin inkişafı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğunun təmin olunması, informasiya-məlumatlandırma, təbliğat kimi başlıca hədəflərlə bağlı mühüm tapşırıqlar verilmişdir. Ümumilikdə muxtar respublikanın davamlı inkişafı üçün mühüm fəaliyyət konsepsiyası irəli sürülmüşdür.

### Naxçıvanı sevərək dünyaya sevdirmək məramı

Naxçıvan... Nuh Peyğəmbərin həyat izləri qədər qədim və müqəddəs, Əshabi-Kəhf ilahi sirli-möcüzəli, Haçadağ ucalıqlı, Möminə Xatın sevgi-ehtiramlı, Atabəylər ehtişamlı bu qədim yurdun son onilliklərdə Ana Vətəndən təcrid edilsə də, inkişaf, tərəqqi yolu ilə dönmədən irəliləməsi dünyaya "Naxçıvan möcüzəsi" təəssüratını bəxş edir. Politoloqlar, ictimai-siyasi xadimlər bu möcüzənin sirrini çözməyə çalışırlar. Əslində isə, elə bu möcüzənin qeyri-adiliyi də sadə reallığındadır. Bu sirr, möcüzə bir vaxtlar Ümummilli Lider Heydər Əliyevin də qeyd etdiyi kimi, xalqa və doğma torpağa olan, Vətəninə, vətəndaşına, yurduna-yurddaşına olan məhəbbətdir. Naxçıvanı sevərək dünyaya sevdirmək məramıdır.

Bu sevginin qarşılığını, qiymətini isə naxçıvanlılar budəfəki seçkilərdə də yenidən öz səsi, öz rəyi ilə bildirdilər. Bu, muxtar respublika rəhbərinin və sakinlərinin Ümummilli Lider Heydər Əliyev ideyalarına siyasi sadiqlik əzmini bir daha nümayiş etdirdi. Bu, heç də asanlıqla qazanılmayan, hər kəsə nəsib olmayan el məhəbbətidir...

***Mehriban SULTAN,***
***"Şərq qapısı" qəzetinin baş redaktoru***

# Xəzərlə Adriatik dənizi birləşir

## Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsü ilə reallığa çevrilən əsrin layihəsi - "Cənub qaz dəhlizi" bu ilin sonunda tam olaraq fəaliyyətə başlayacaq

*Əvvəli 1-ci səh.*

Prezident onu da vurğuladı ki, Azərbaycan özü və qonşuları üçün enerji təhlükəsizliyini təmin edən ölkədir. Enerji resurslarının şaxələndirilməsi ən vacib məsələlərdən biridir. Burada, əlbəttə, mənbələrin şaxələndirilməsi ən vacib məsələdir: "Bizim nümunəmizdə isə mənbələrin və marşrutların şaxələndirilməsindən söhbət gedir. Həmçinin düşünürəm ki, bizim uğurumuzun əsas səbəblərindən biri maraqların balansıdır - hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasındakı balans. Əminəm ki, aramızdakı bu müsbət əməkdaşlıq formatı davam edəcək".

### "Cənub qaz dəhlizi" Avropa İttifaqı üçün nailiyyətdir

Azərbaycanın neft-qaz ehtiyatlarının hasilatı və ixracı sahəsində görülən işləri xatırladan cənab İlham Əliyev Azərbaycanın etibarlı tranzit ölkəyə çevrildiyini, neftdən gələn gəlirlərin ölkənin inkişafına xərcləndiyini, indiyə qədər bir çox infrastruktur layihələrin icra edildiyini və bu istiqamətdə işlərin davam etdiyini söylədi.

Məşvərət Şurasının son illərdə səylərin gücləndirilməsinə və "Cənub qaz dəhlizi"nin reallaşmasına mühüm töhfə verdiyini vurğulayan dövlət başçısı bildirdi ki, layihəyə üzv ölkələrin tərkibi ümumi məqsədləri birləşdirir. Prezident layihənin keçdiyi tarixi yola nəzər salaraq dedi ki, bu layihə əsasında əməkdaşlığın nadir formatı yaradılıb. Bu layihə Azərbaycanın təşəbbüsü olub və qonşular tərəfindən dəstəklənib.

Avropa Komissiyasının nümayəndəsi Klaus-Diter Borxardt isə "Cənub qaz dəhlizi"nin Avropa İttifaqı üçün nailiyyət olduğunu deyərək bu layihənin Avropanın enerji təhlükəsizliyini gücləndirdiyini söylədi: "Avropa İttifaqı üçün əlbəttə ki, bu layihə həyati əhəmiyyət kəsb edir. Çünki bu, bizim enerji təhlükəsizliyimizi gücləndirir, həmçinin bizim şaxələndirmə strategiyamızın bir hissəsidir, yeni mənbədir və eləcə də daha mühüm olan Avropa bazarına yeni marşrutdur. Burada mən bütün bu illər ərzində bu layihələrə göstərdiyi idarəçiliyə və rəhbərliyə görə Prezident Əliyevə və onun hökumətinə təşəkkürümü bildirmək istərdim".

### Bu layihə ABŞ-Azərbaycan əməkdaşlığının zirvəsidir

Prezident İlham Əliyev fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnelli ilə görüşdə layihənin icrasında göstərdiyi dəstəyə görə ABŞ hökumətinə minnətdarlığını bildirdi:

"Bu mühüm layihənin icrasında göstərdiyi davamlı dəstəyə görə ABŞ hökumətinə minnətdarlığımı bildirmək istərdim. Bilirəm ki, Prezident Tramp şəxsən prosesdə iştirak edir. Onun fəal təmasları və iştirakı bizim əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu. Hazırda biz heç bir başqa maneə görmürük. Qarşıdakı yol çox aydındır. Əminəm ki, səmərəli əməkdaşlığımız gələcəkdə davam edəcək, çünki ABŞ hökuməti bizim istər neft və qaz kəmərləri, istərsə də enerji potensialımızın inkişafı ilə bağlı layihələrimizi hər zaman çox dəstəkləyib".

Kurt Donelli isə "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən plenar sessiyada qeyd edib ki, ABŞ Azərbaycanın enerji siyasətinə güclü və davamlı dəstək göstərir. Azərbaycan-ABŞ münasibətlərində enerji sektoru həmişə strateji əhəmiyyət daşıyıb. Birləşmiş Ştatlar Azərbaycanın enerji ilə bağlı bütün təşəbbüslərində qətiyyətli tərəfdaş olub: "ABŞ "Cənub qaz dəhlizi"nin uğurla yekun fazaya daxil olmasına yüksək və davamlı dəstək nümayiş etdirir. "Cənub qaz dəhlizi" enerji sahəsində ABŞ-Azərbaycan əməkdaşlığının zirvəsidir".

### Dünya əhəmiyyətli tarixi layihə

Bir sözlə, qətiyyətli siyasəti, prinsipial mövqeyi ilə tanınan cənab İlham Əliyev uğurları sırasına birini də əlavə edir. Bu layihənin hansı formada ərsəyə gəlməsi bəllidir. Yalnız güclü siyasi iradə nəticəsində bu beynəlxalq layihə gerçəkliyə çevrilib.

İlin sonunda daha bir dünya əhəmiyyətli tarixi layihə həyata vəsiqə alacaq. Layihənin işə düşməsi ilə regiona və tərəfdaş ölkələrin həyatına yeni bir nəfəs gələcək.

Ümumiyyətlə, "Cənub qaz dəhlizi" Azərbaycan Prezidentinin söylədiyi kimi, enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Layihənin elə önəmi də bundadır - enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılır. Bu dəhliz həm yeni yollar, həm də yeni mənbədir. Xəzər dənizindəki təbii ehtiyatların ən münasib marşrutlarla daşınaraq Avropa bazarlarına nəql edilməsi bölgədə iqtisadi inkişafa və təhlükəsizlik mühitinin möhkəmlənməsinə mühüm töhfə verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***




# Referendum keçirmək qərarı Paşinyana nifrəti artırır

## Ermənistandakı ağır sosial-iqtisadi və siyasi vəziyyət etirazların səngiməsinə imkan vermir

*Əvvəli 1-ci səh.*

Ölkə vətəndaşları aprel referendumunun onların real problemləri ilə əlaqəli olmadığını artıq başa düşürlər. Buna görə də onların könüllü olaraq seçki məntəqələrinə gedib Nikolun xeyrinə səs verəcəyi elə də inandırıcı görünmür. Bildirilir ki, sosial proqramların ixtisar edildiyi bir şəraitdə baş nazirin iqtisadi problemləri bir tərəfə ataraq ayyarım müddətində antikonstitusiya layihəsi üçün kampaniya aparacağına mənfi yanaşırlar. Çünki kampaniyaya sərf olunacaq vəsait nə Paşinyanın, nə də onun ətrafının deyil, sadə ermənilərin hesabına ödəniləcək. Kampaniyada şəxsən iştirak edəcək Paşinyan həll olunmamış məsələlərlə bağlı adi vətəndaşların çoxsaylı suallarını dinləyib onlara yenə şirin vədlər verəcək.

"Lragir" saytına açıqlamasında hüquq müdafiəçisi Vahan İşxanyan deyib ki, Paşinyan referendumdan qalib çıxsa, Ermənistanda qanunun aliliyi yox olacaq. Ölkə məhkəmələrini öz təsiri altına salacaq Nikol bununla da ermənilərin zəlil günlərinə start vermiş olacaq.

Vurğulanır ki, əhali iki ildir baş nazirin yalanlarını eşitməkdən yorulub. Səriştəsiz Paşinyanın "fəaliyyətinin" nəticəsidir ki, bu gün Ermənistan iqtisadiyyatı iflic olub, ölkəyə investisiya yatıran yoxdur, həyat hər gün daha bahalı olur, yoxsulların sayı artır, dövlət sektorunda maaşlar azaldılır. Sayt ehtimal edir ki, aprelin 5-də seçki məntəqələrinə gəlib Paşinyana dəstək verənlərin sayı çox olmayacaq. Bu halda baş nazirin yeganə çıxış yolu əyalətlərdə özünə dəstək axtarmaqdır.

Lakin Ermənistan əyalətlərində də hökumətdən narazılıqlar hər keçən gün artır. Bildirilir ki, sosial-iqtisadi problemlərin yaxın gələcəkdə aradan qaldırılması ümidverici deyil. Vurğulanır ki, ölkədə qanunlara uyğun tədbirlər görülmür. Problemlərin həlli yalnız ölkəni tərk etməkdir. Ermənistan iqtisadiyyatının yaxşılaşması reallaşmayan arzudur. Hökumətin maaşların və pensiyaların artırılması ilə bağlı verdiyi vəd yalandır. Ölkəni idarə edənlər əhalinin gəlirlərini artırmaq istəmirlər. Ermənistan hökuməti erməni xalqını səfalətə məhkum edir. Ölkədə iqtisadiyyatın inkişafı real deyil.

İşğalçı ölkənin ordu quruculuğu prosesində yaşanan problemlərin miqyası da davamlı surətdə genişlənməkdədir. Həm döyüş, həm də qeyri-döyüş şəraitində həyatını itirən erməni hərbçilərinin sayı durmadan artır. Hərbi qulluqçular arasında yoluxucu xəstəliklərin tüğyan etdiyi bir vaxtda növbəti hadisə baş verib. Belə ki, Ermənistanda sosial şəbəkələrdə yayılan məlumatlara görə, Qafanda yerləşən hərbi hissələrdən birində xidmət edən hərbi qulluqçu İqor Sarkisyan koronovirusa yoluxduğu üçün təcili hospitala yerləşdirilib. Bir neçə gün əvvəl hərbi qulluqçunun koronavirusa yoluxduğuna dair xəbər verilməsinə baxmayaraq, bu, onun valideynlərindən və ictimaiyyətdən gizlədilir. Hərbi qulluqçu təcrid edilərək karantinə alınıb. Onun ailə üzvləri ilə əlaqə saxlamasına da icazə verilmir.

Bütün bunlar xalqın böyük narazılığına yol açır və bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın şəkildə göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusu genişmiqyaslı komanda-qərargah təlimlərinə başlayır

Qoşunların 2020-ci tədris ilinin hazırlıq planına uyğun olaraq martın 2-də Azərbaycan Ordusu genişmiqyaslı komanda-qərargah təlimlərinə başlayır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında keçiriləcək təlimlər informasiya texnologiyalarının geniş tətbiqi, həmçinin heyətlərin, vaxt göstəriciləri və qəbul edilən qərarların icrası planlarının yoxlanılmasının müvafiq idarəetmə orqanları ilə dəqiqləşdirilməsi ilə ərazi, xəritə və ərazinin maketi üzərində icra olunacaq.

Təlimlərin hər bir mərhələsində döyüşə hazırolmanın yüksəldilməsi nəzərə alınmaqla, qoşunların vaxtında və hərtərəfli, o cümlədən informasiya təminatının həyata keçirilməsi ilə qoşunların və silahların ən müasir idarəetmə üsullarının tətbiqi planlaşdırılaraq vəziyyətin inkişafının ən vacib məsələləri diqqətlə nəzərdən keçiriləcək. Təlimlər martın 6-dək davam edəcək.



# Azərbaycanın Mədəniyyət naziri Mədəni Marşrutlar üzrə Avropa İnstitutunun direktoru ilə görüşüb

Mədəniyyət naziri Əbülfəs Qarayev "Azərbaycanın mədəni marşrutlar potensialı" mövzusunda respublika müşavirəsində iştirak məqsədilə ölkəmizə təşrif buyuran Avropa Şurası Demokratiya üzrə Baş Direktorluğunun Avropa Şurasının Mədəni Marşrutların Sahəvi İnkişafı üzrə Katibliyinin rəhbəri, Mədəni Marşrutlar üzrə Avropa İnstitutunun direktoru Stefano Dominioni ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Avropa Şurasının Mədəni Marşrutlar layihəsində Azərbaycanın təmsil olunmasının beynəlxalq aləmdə mədəni əlaqələrin daha da genişləndirilməsinə, eyni zamanda layihəyə qoşulan digər ölkələrlə mədəni marşrutlar sahəsində yeni təcrübələrin əldə olunmasına gətirib çıxartmasından danışılıb.



Nazir Əbülfəs Qarayev Azərbaycanın 2011-ci ildən Avropa Şurasının mədəni marşrutlar şəbəkəsinin ayrılmaz bir hissəsinin olduğunu vurğulayaraq bildirib ki, ölkəmiz bu illər ərzində 5 beynəlxalq marşruta qoşulmuş, qoşulduğu ildən bəri mədəni marşrutlar şəbəkəsində fəal iştirak etməklə təşkilatın fəaliyyətinə öz töhfəsini verməkdədir. O bildirib ki, keçirilən müşavirə ölkəmizin mədəni marşrutlar sahəsində ixtisaslaşdığını, o cümlədən beynəlxalq mədəni marşrutlarda təmsilini genişləndirməklə yeni təcrübələrə yiyələnməli və əldə olunan nəticələri bölüşərək sahə üzrə qabaqcıl ölkələrdən birinə çevrilmə potensialının mövcudluğunu üzə çıxartdı.

Mədəni Marşrutlar üzrə Avropa İnstitutunun direktoru Stefano Dominioni "Azərbaycanın mədəni marşrutlar potensialı" mövzusunda respublika müşavirəsinin keçirilməsinin böyük əhəmiyyətini vurğulayaraq, nazirə səmimi qəbula görə təşəkkürünü bildirib. Həmçinin keçirilən müşavirənin Avropa Mədəni marşrutlar layihəsinə qoşulmuş digər ölkələr üçün xüsusi model olacağını vurğulayıb. Digər ölkələrdə mədəni marşrutlar sahəsində keçiriləcək təlimlərdə ölkəmizin fəal iştirakı və regionlarda bu cür təlimlərin təşkili yeni mədəni marşrutların yaradılması üçün müxtəlif, yeni təcrübələrin öyrənilməsinə təkan verəcəyini bildirib. Qeyd edib ki, müşavirədə müzakirə olunan mövzular Azərbaycanın Avropa Şurasının Mədəni Marşrutlar layihəsində təmsilinin daha da genişləndirilməsinə, eyni zamanda, qazanılmış təcrübəsini paylaşmaqla Avropa mədəni marşrutlar şəbəkəsinə özünəməxsus töhfəsini verəcəkdir.

Görüşdə Azərbaycanın yeni mədəni marşrutlar üzrə təmsil olunması ilə bağlı aparılan işlər haqqında, həmçinin ölkəmizdə yeni yerli mədəni marşrutların yaradılması və sertifikatlaşdırılması ilə əlaqədar gələcək addımlar barədə fikir mübadiləsi aparılıb.

# Xocalı soyqırımının ildönümü ilə əlaqədar Vyanada aksiya keçirilib

Avstriyada fəaliyyət göstərən Avstriya-Azərbaycan Mədəniyyət və İş Adamları Dərnəyi (Azer-DER) fevralın 29-da Vyana şəhərinin mərkəzində yerləşən və piyadaların gur hərəkət etdiyi Ştefansplats meydanında Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar kütləvi aksiya keçirib.




Küçədə qurulan çadırda Xocalı soyqırımını və ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsi barədə gerçəkləri əks etdirən müxtəlif dillərdə kitablar, broşürlər və digər informasiya materialları nümayiş etdirilib. İştirakçılar üzərində "Xocalıya ədalət!" yazılmış böyük ölçülü şüarla meydandan keçən insanların diqqətini aksiyaya yönəldiblər, eləcə də Heydər Əliyev Fondu tərəfindən hazırlanmış informasiya materiallarını və almanca hazırlanmış vərəqələri yerli sakinlər arasında yayıblar.

Dərnəyin fəalları aksiyaya maraq göstərən insanlarla söhbət edərək Ermənistanın işğalçı siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətində yaşamağa məcbur olması, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, Azərbaycanın münaqişənin sülh yolu ilə həll olunmasında göstərdiyi səylər barədə danışıblar. Onlar Xocalı faciəsinin tarixi ilə maraqlanan Vyana sakinlərinə informasiya vərəqələri ilə yanaşı, matəmin rəmzi olaraq qərənfillər paylayıblar.

Tədbirin sonunda təşkilatın rəhbəri Yadım Günəş çıxış edərək Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biri olan Xocalı soyqırımının Ermənistan silahlı birləşmələri tərəfindən törədildiyini, dünya ictimaiyyətinin bu faciəyə obyektiv hüquqi qiymət verməli olduğunu bildirib.

Sonra Xocalı faciəsi barədə bəyanat səsləndirilib. Bəyanatda soyqırımı haqqında məlumat verilib, indiyədək dünyanın bir sıra ölkələri tərəfindən Xocalı soyqırımının tanındığı qeyd edilib. Bəyanatın yekununda Avstriya parlamenti Xocalı soyqırımı ilə bağlı öz mövqeyini bildirməyə və bu bəşəri cinayəti pisləməyə çağırılıb.

**AZƏRTAC**

# ABŞ Konqresinin üzvü Pit Olson Xocalı faciəsinin ildönümü ilə bağlı bəyanat verib

ABŞ Konqresində Texas ştatını təmsil edən respublikaçı Pit Olson Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı bəyanat verib.

Bəyanatda 1992-ci il fevralın 26-da Xocalıda faciəvi şəkildə qətlə yetirilmiş azərbaycanlıların xatirəsi yad olunub. Həmçinin o dəhşətli gecədə 613 azərbaycanlının Ermənistan və keçmiş sovet ordusunun motoatıcı alayının qüvvələri tərəfindən vəhşicəsinə qətlə yetirildiyi, günahsız qadın, uşaq və yaşlıların 22 saat ərzində qəddarcasına qətliama məruz qaldıqları əks olunub.

Konqres üzvü 28 ildir bu dəhşətli faciə ilə qovrulan və yaralarını sağaltmağa çalışan Azərbaycanın sürətli inkişaf istiqamətində qəti addımlarla irəlilədiyini qeyd edərək ölkəmizin hazırda ABŞ-ın, eləcə də gərgin geosiyasi regionda yerləşən İsrailin etibarlı dostu və ticarət tərəfdaşı olduğunu vurğulayıb.

P.Olson belə hücum və qəddarlıq aktını pisləyərək ABŞ-ın belə anlarda müttəfiqlərinin və dostlarının yanında olmasının vacibliyini vurğulayıb və Xocalıda qətlə yetirilmiş azərbaycanlıların xatirəsini bir daha ehtiramla anıb.

**AZƏRTAC**

# Xocalı soyqırımı Meksika mediasının diqqət mərkəzində

Meksikanın ən çox oxunan ingilisdilli "Pulse News Mexico" qəzetində jurnalist Tereza Marqolisin Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı "Soyqırımını anarkən" sərlövhəli məqaləsi dərc olunub.

Məqalədə fevralın 26-da müasir tarixin ən dəhşətli və ən faciəvi soyqırımlarından birinin 28-ci ildönümünün qeyd olunduğu bildirilir. Müasir tarix kitablarında bu soyqırımı haqqında kifayət qədər məlumat olmasa da, bütün bir şəhərin amansızcasına yer üzündən silinməsinin Azərbaycan xalqının yaddaşında əbədi qalacağı qeyd edilir. Müəllif bəzi soyqırımların dünya ictimaiyyəti tərəfindən tanınıb qınandığına baxmayaraq, digərlərinin layiq olduğu qədər işıqlandırılmadığını təəssüf hissilə qeyd edir və həmin soyqırımlardan birinin 1992-ci ildə Xocalıda baş verdiyini oxucuların diqqətinə çatdırır.

Məqalədə, həmçinin Meksikanın dünyada Xocalı soyqırımını tanıyan ölkələr sırasında olduğu qeyd olunur. 28 il bundan əvvəl erməni hərbi birləşmələrinin Azərbaycan ərazisini işğal etdiyi və bütün bir şəhərin yerlə yeksan olunduğu diqqətə çatdırılır. Eyni zamanda, Xocalı soyqırımı barədə ətraflı məlumatlar təqdim olunur. Erməni işğalçıları tərəfindən zülmə məruz qalan silahsız insanlardan bəzilərinin xüsusi qəddarlıqla qətlə yetirildiyi qeyd edilir.

Məqalədə habelə beynəlxalq ictimaiyyətin Xocalı soyqırımını qınayan bəyanatlar yaydığı, "Human Rights Watch" kimi beynəlxalq insan hüquqları müdafiəsi təşkilatları tərəfindən pisləndiyi və BMT Təhlükəsizlik Şurası tərəfindən qətnamələrin qəbul edildiyi qeyd olunur.




Müəllif dünya ictimaiyyətinin qısa müddət ərzində Xocalı dəhşətlərini pislədiyinə baxmayaraq, indi bu soyqırımına lazımi diqqət yetirilmədiyini təəssüf hissilə qeyd edir. Xocalı əhalisinə qarşı törədilən cinayətləri bütün bəşəriyyətə qarşı cinayət adlandıran müəllif ermənilərin niyyətinin Xocalını və onun əhalisini yer üzündən silmək olduğunu qeyd edir. Bildirilir ki, Azərbaycanın Meksikadakı səfirliyi tərəfindən hər il Xocalı şəhidlərinin xatirəsinə anım mərasiminin təşkil edilməsinə baxmayaraq, yerli mətbuat və insan hüquqları qrupları tərəfindən bu məsələyə daha böyük diqqət ayrılmalıdır.

Məqalədə dünya ictimaiyyətinə səslənən müəllif yazıb: "Xocalıda törətdikləri vəhşiliklərə görə Ermənistanın məsuliyyətə cəlb olunması üçün dünya ictimaiyyəti öz qəti mövqeyini bildirməlidir. Yalnız bundan sonra Ermənistanla Azərbaycan arasındakı mövcud münaqişə həllini tapa bilər".

Azərbaycanın 20 faiz ərazisinin hələ də Ermənistanın işğalı altında olduğunu qeyd edən müəllif işğal nəticəsində bir milyondan çox insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü oxucuların diqqətinə çatdırır.

Qeyd olunmalıdır ki, Meksikanın "El Arsenal" və "El Mundo Para Ti" xəbər portallarında da jurnalist Sofia Salinasın Xocalı soyqırımı ilə bağlı geniş məqalələri dərc olunub.

**AZƏRTAC**

# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2020-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Fikrət Məmmədov** Ədliyyə naziri | 05 | Şirvan, Hacıqabul, Saatlı |
| **Mikayıl Cabbarov** İqtisadiyyat naziri | 06 | Qazax |
| **Niyazi Səfərov** İqtisadiyyat nazirinin müavini | 06 | Tovuz |
| **Sahib Məmmədov** İqtisadiyyat nazirinin müavini | 06 | Samux |
| **Ramin Quluzadə** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri | 06 | Biləsuvar, Neftçala |
| **Əli Abdullayev** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini | 06 | Salyan |
| **Namiq Əsgərov** Baş prokurorun müavini | 06 | Neftçala, Cəlilabad |
| **Vilayət Zahirov** Ədliyyə nazirinin müavini | 06 | Yevlax, Ağdaş, Goranboy |
| **Şahin Yusifov** Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 06 | Kürdəmir |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 10 | Saatlı |
| **Gündüz İsmayılov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 10 | İmişli |
| **Ramil Yusifov** "Azərişıq" ASC-nin sədrinin müavini | 10 | Ağdam, Ağcabədi |
| **Əhməd Əhmədzadə** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 11 | Göygöl |
| **Rafiq Aslanov** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 11 | Samux |
| **Zakir Quliyev** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 11 | Goranboy |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 12 | Bərdə, Yevlax, Tərtər, Zərdab |
| **Mayıl Şahverdiyev** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 12 | Ağdaş, Ucar, Göyçay |
| **Ramiz Rzayev** Ali Məhkəmənin sədri | 13 | Şəmkir |
| **Muxtar Babayev** Ekologiya və Təbii Sərvətlər naziri | 13 | Xaçmaz, Quba, Şabran |
| **Firdovsi Əliyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 13 | Qusar |
| **Rauf Hacıyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 13 | Xızı, Siyəzən |
| **Pərviz Şahbazov** Energetika naziri | 13 | Masallı |
| **Samir Vəliyev** Energetika nazirinin müavini | 13 | Ağsu |
| **Elnur Soltanov** Energetika nazirinin müavini | 13 | İsmayıllı |
| **Azad Rəhimov** Gənclər və İdman naziri | 13 | Şirvan, Hacıqabul |
| **İsmayıl İsmayılov** Gənclər və İdman nazirinin müavini | 13 | Sabirabad, Saatlı |
| **İntiqam Babayev** Gənclər və İdman nazirinin müavini | 13 | Neftçala, Salyan |
| **Kəmaləddin Heydərov** Fövqəladə Hallar naziri | 13 | Bərdə |
| **Orucəli Hacıyev** Fövqəladə Hallar nazirinin müavini | 13 | Ağcabədi |
| **Ragim Lətifov** Fövqəladə Hallar nazirinin müavini | 13 | Tərtər |
| **Əbülfəs Qarayev** Mədəniyyət naziri | 13 | Siyəzən, Şabran |
| **Vaqif Əliyev** Mədəniyyət nazirinin birinci müavini | 13 | Quba, Qusar |
| **Rafiq Bayramov** Mədəniyyət nazirinin müavini | 13 | Xaçmaz |
| **Oqtay Şirəliyev** Səhiyyə naziri | 13 | Göygöl, Daşkəsən |
| **Elsevər Ağayev** Səhiyyə nazirinin müavini | 13 | Şəmkir |
| **Rahim Əliyev** Səhiyyə nazirinin müavini | 13 | Samux |
| **Ceyhun Bayramov** Təhsil naziri | 13 | Ağdam, Füzuli |
| **Rüstəm Usubov** Baş prokurorun birinci müavini | 13 | Tərtər, Şəmkir |
| **Ceyhun Həsənov** Ədliyyə nazirinin müavini | 13 | Quba, Qusar, Xaçmaz |
| **Aynur Sofiyeva** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 13 | Sabirabad, Saatlı, Hacıqabul |
| **Vüqar Əhmədov** "Azərişıq" ASC-nin sədri | 13 | Neftçala |
| **Ruslan Əliyev** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktoru | 13 | Salyan |
| **Ramil İsgəndərov** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 13 | Neftçala |
| **Cahid Hüseynov** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 13 | İmişli |
| **Qorxmaz Hüseynov** "Azərsu" ASC-nin sədri | 16 | Füzuli, Cocuq Mərcanlı (Cəbrayıl) |
| **Səyyad Salahlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 17 | Qobustan |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 17 | Yevlax, Mingəçevir, Ağdaş |
| **Bəhram Xəlilov** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 17 | Goranboy, Naftalan |
| **Teyyub Cabbarov** "Azərsu" ASC-nin sədrinin birinci müavini | 17 | Beyləqan, Xocavənd |
| **Səyavuş Heydərov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 18 | Beyləqan |
| **Etibar Məmmədov** "Azərsu" ASC-nin sədrinin müavini | 18 | İmişli |
| **Saleh Məmmədov** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 19 | Yevlax, Ucar |
| **Əvəz Qocayev** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 19 | Zərdab |
| **Zakir Qaralov** Baş prokuror | 27 | Hacıqabul, Kürdəmir |
| **Sahil Babayev** Əmək və Əhalinin Sosial Müdafiəsi naziri | 27 | Goranboy |
| **Anar Kərimov** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 27 | Yevlax |
| **Vüsal Nəsirli** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 27 | Naftalan, Xocalı |
| **İnam Kərimov** Kənd Təsərrüfatı naziri | 27 | Ağsu, İsmayıllı |
| **İlham Quliyev** Kənd Təsərrüfatı nazirinin müavini | 27 | Göyçay, Ağdaş |
| **Elçin Zeynalov** Kənd Təsərrüfatı nazirinin müavini | 27 | Qobustan, Şamaxı |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 27 | Göyçay, Ucar, Ağdaş |
| **İsmayıl Hüseynov** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 27 | Kürdəmir |
| **Əsgər Abdullayev** Dövlət Gömrük Komitəsi sədrinin müavini | 27 | Zərdab |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 27 | Ağdam |
| **Fuad Hüseynov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 27 | Tərtər |
| **Sabir Əhmədov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 27 | Bərdə |
| **Firudin Qurbanov** Təhsil nazirinin müavini | 31 | Tərtər, Ağcabədi |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.*

# REGİONLAR








“Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası cəbhə bölgəsi olan Tərtər rayonunda sahibkarlığın inkişafına, yeni iş yerlərinin açılmasına, əhalinin rifah halının daha da yaxşılaşmasına öz müsbət təsirini göstərməkdədir.

## Məqsəd qabaqcıl mövqeyi qoruyub saxlamaqdır

Dövlət proqramının arxada qalan bir ili rayon iqtisadiyyatının yüksəlişində mühüm inkişaf mərhələsi kimi artıq tarixə çevrilmişdir. Keçən il təsərrüfat, tikinti, abadlıq-quruculuq işləri uğurla davam etdirilmiş, kənd təsərrüfatı məhsulları istehsalında böyük nailiyyətlər qazanılmışdır.

2019-cu ildə rayonda “Dövlət rəmzləri” müzeyi, Olimpiya İdman kompleksi, Xalça istehsalı emalatxanası, Su-Kanal İdarəsinin inzibati binası inşa edilmiş, mövcud yol infrastrukturu əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Aqrar rayon olan Tərtərdə keçən il kənd təsərrüfatı məhsullarının istehsalı 7,5, sənaye məhsullarının istehsalı 7,2, informasiya və rabitə xidmətlərinin həcmi 14,6, nəqliyyat xidmətlərinin həcmi 2,9 faiz artmışdır. Rayonda bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 21,9 milyon manat təşkil etmiş, onun 91,2 faizi tikinti-quraşdırma işlərinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş investisiyaların 1,6 milyon manatı rayonun yerli sahibkarları tərəfindən iqtisadiyyatın müxtəlif sahələrinə xərclənmişdir. Nəticə etibarı ilə rayon üzrə orta aylıq əməkhaqqı 2018-ci ilə nisbətən 26,3 faiz artaraq 340,8 manat təşkil etmişdir. İl ərzində 907-si daimi olmaqla 1796 yeni iş yerləri açılmışdır.

Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələri inkişaf etdirmək sahəsində tapşırıq və tövsiyələrinə əməl edən Tərtər fermerləri keçən il kənd təsərrüfatı bitkilərinin əkin sahəsini əvvəlki illə müqayisədə 744 hektar artırmışlar. Bu addım rayonun təsərrüfatlarında əkin sahələrinin suvarma suyu ilə təminatında ciddi problemlərin mövcud olduğu bir şəraitdə atılmışdır.

Məlumdur ki, Sərsəng su anbarının uzun illərdən bəri Ermənistan silahlı qüvvələrinin işğalı altında qalması rayonda su qıtlığı yaradır. Bu səbəbdən dövlət Tərtər kəndlisinin su problemini həll etmək üçün zəruri tədbirlər görür, ərazidə subartezian quyularının qazılması üçün hər il büdcədən böyük həcmdə vəsait ayırır. Nəticədə keçən il rayonda 10,908 hektar sahədən 42,352 ton taxıl biçilmiş, hər hektarın məhsuldarlığı 38,8 sentnerə çatmışdır. Strateji məhsul olan pambıqçılığın inkişafına da böyük önəm verilir. Son illər bu sahədə məqsədyönlü şəkildə həyata keçirilən kompleks təşkilat-təsərrüfat tədbirləri Tərtəri ölkənin pambıqçılıq rayonları arasında ön mövqeyə çıxarmış, burada təcrübə məktəbi yaranmasını təmin etmişdir.








Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək işlərlə bağlı keçirilən respublika müşavirəsində Prezident İlham Əliyev Tərtər pambıqçılarının əməyini yüksək qiymətləndirərək demişdir: “Mən bir daha demək istəyirəm ki, Tərtərdə pambıqçılıqda əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da çox böyük işlər görülübdür, özü də nəzərə almalıyıq ki, bu, düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, Vətənə bağlılıqlarını göstərmişlər... Belə ağır vəziyyətdə işləmək və yüksək nəticələr əldə etmək doğrudan da yüksək qiymətə layiqdir”.

Yeri gəlmişkən, qeyd edək ki, rayon üzrə keçən il 3,427 hektarda pambıq əkilmiş, emal müəssisələrinə 11,936 ton məhsul təhvil verilmiş, orta məhsuldarlıq 34,8 sentnerə çatmışdır. Bu, ölkənin pambıq əkən rayonları arasında ən yüksək nəticə olmuşdur.

Aqrar sektorun digər sahələrində qazanılan göstəricilər də yüksəkdir. Tərtər istehsal etdiyi keyfiyyətli günəbaxan tumu ilə məşhurdur. Ölkədə ən çox günəbaxan əkən və istehsal edən rayon da Tərtərdir. Keçən il rayonun təsərrüfatlarında 2481,6 hektar sahədən 6,584 ton günəbaxan dəni toplanmışdır. Bundan əlavə, keçən il 18,693 ton şəkər çuğunduru, 4,515 ton kartof, 15,741 ton tərəvəz, 1,063 ton qarğıdalı, 10,530 ton meyvə, 3,111 ton ət, 22,441 ton süd, 106,5 ton yun və digər kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur.

Keçən il həmçinin 18,3 ton yüksəkkeyfiyyətli barama tədarük edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 79,1 faiz çoxdur. Son dörd ildə rayonda barama istehsalı 19,1 dəfə artmışdır.

Halal zəhmətlə qazandığı nailiyyətləri artırmağa, qabaqcıl mövqeyini qoruyub saxlamağa çalışan Tərtər kəndlisini indi 2020-ci ilin qayğıları düşündürür. Məqsəd dövlətin davamlı qayğısına yeni və sanballı əmək töhfələri ilə cavab verməkdir.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

## Tovuz gəl-gəl deyir

Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrası Tovuz rayonunun da simasını başdan-başa dəyişmişdir. Son bir neçə ildə rayonda görülən işləri saymaqla qurtaran deyil.




Əhalinin işıq, qaz, su problemləri həll edilmiş, insanların məşğulluğu təmin olunmuşdur. Kənd təsərrüfatının sürətli inkişafına nail olmaq üçün dövlətin həyata keçirdiyi tədbirlər sakinlərin dolanışığını təmin etmişdir.

Rayon mərkəzinə daxil olanda ilk nəzəri cəlb edən nəhəng qala abidə kompleksidir. Məqsəd rayona qədəm qoyan yerli və xarici qonaqlara yaşadıqları rayonun qədimliyini göstərməkdir. Bu maraq bizi də rayonun tarixi ilə maraqlanmağa sövq etdi. Öyrəndik ki, Tovuzun ərazisində zəngin tarixi abidələrə rast gəlinməsi qədim tayfa və xalqların nümayəndələrinin yaşadıqları yurd yerlərindən biri olmasına sübutdur. Zəyəmçay hövzəsində tapılmış 300 min il yaşı olan suxurlar, qədim Hunan şəhərinin qalıqları olduğu söylənilən Torpaqqala abidələri, 8-10 min il tarixə malik Köhnəqala və Göytəpə abidələri və digərləri bu qəlbildəndir. Təqdirəlayiq haldır ki, tovuzlular aparılan yenidənqurma işlərində bu qədimliyi qoruyub saxlamaqla tarixi abidələrə ikinci həyat verirlər.








Həmsöhbətimiz rayon icra hakimiyyətinin Tovuz şəhəri üzrə nümayəndəsi Yaşar İbrahimov oldu. O, son illər rayonda, eləcə də Tovuz şəhərində həyata keçirilən işlərdən danışdı. Qeyd etdi ki, əvvəlki illərdə olduğu kimi, keçən il də şəhərdə abadlıq və quruculuq işləri sürətlə davam etdirildi. Şəhərin Heydər Əliyev prospektində, Həzi Aslanov, Şəhriyar, Musa Musayev, Səməd Vurğun, Mərdan Musayev küçələrində və Tovuz şəhər parkında böyük yenidənqurma işləri aparıldı, istirahət parklarında təmir-tikinti işləri görüldü, yol dairələri yaşıllaşdırıldı.

Dövlət başçısının Tovuz şəhərinin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı verdiyi sərəncama uyğun olaraq keçən il çəkilmiş yeni xətlər hesabına şəhər əhalisinin içməli suya olan tələbatı tamamilə ödənildi. Tarix diyarşünaslıq, dövlət rəmzləri, aşıq sənəti muzeyləri əsaslı şəkildə təmir edildi. Rayon mərkəzində “ASAN xidmət” Mərkəzinin inzibati binasında tikinti işləri başa çatdırıldı.

Şəhər əhalisinin elektrik enerjisinə və mavi yanacağa olan tələbatının ödənilməsi istiqamətində də xeyli iş görülmüşdür. Küçələrin işıqlandırılması ilə bağı şəhər əhalisinin müraciətləri həll olunmaq üzrədir. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Bundan başqa, sakinlərin arzu və istəkləri nəzərə alınaraq şəhərdaxili marşrut xətlərinin genişləndirilməsi, veteranlar üçün istirahət evinin yaradılması, yüksəkmərtəbəli binaların həyətlərində səliqə-sahman yaradılması, həmçinin bəzi küçələrə asfalt salınması işlərinin həyata keçirilməsi diqqətdə saxlanılır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Təhsil müəssisələrinin yenilənməsi diqqət mərkəzindədir



Son illər Qubanın təhsil müəssisələrində yenilənmə prosesi davam edir. Rayonun kəndlərində yeni modul tipli məktəblər yaradılır və şagirdlərin təhsilinin yaxşılaşması istiqamətində xeyli iş görülür.

Hazırda davam edən tədris ili qubalılar üçün uğurlu olub. Rayonun Alekseyevka kəndində yeni orta məktəbin tikilib istifadəyə verilməsi bir bayram kimi qeyd edilib. 960 yerlik kənd orta məktəbi təhsilin inkişafı istiqamətində yeni addımdır. Burada şagirdlərin normal şəkildə təhsil alması üçün bütün şərait var. Bu, təhsil müəssisəsinin uğurlarını artırır.

Rayon təhsil işçilərinə bu günlərdə daha bir şad xəbər verilib. Belə ki, bir müddət əvvəl Zəki Kərimov adına Birinci Nügədi kənd tam orta məktəbi üçün nəzərdə tutulmuş yeni tədris ocağının tikintisinə başlanılıb.

Məlumat üçün bildirək ki, bu kənd məktəbində vəziyyət çox pis idi. Divarları uçmaq üzrə olan məktəbdə təhsil almaq çətin idi. Müəllimlər normal şəkildə dərs keçə bilmirdilər. Hazırda tikintisi aparılan 792 şagirdin təhsil alacağı məktəb 3500 kvadratmetr sahəni əhatə edir. Burada 44 sinif otağı, 5 laboratoriya, gənclərin çağırışa qədər hazırlığı ilə məşğul olacağı kabinə var. Burada həmçinin bir neçə kompüter otağı, kitabxana, şagirdlərin sağlamlığını qorumaq üçün idman zalı nəzərdə tutulub. Məktəbdə eyni zamanda 200 nəfərlik yeməkxana tikiləcək.

Tədris müəssisəsi 5 korpusdan ibarət olacaq. 396 nəfərlik akt zalı da inşa ediləcək. Burada müasir işıqlandırma sistemi yaradılacaq, habelə məktəbi havalandıracaq, istiliklə təmin edəcək qazanxana və böyük su çəni quraşdırılacaq.

Məktəbin həyətində yaşıllaşdırma işlərinə indidən başlanılıb. Yeni ağaclar əkilib və şagirdlərin dərsarası istirahəti üçün həyətdə guşə yaradılacaq. Hazırda tikintisi aparılan məktəbin dam örtüyü bağlanıb, qapı-pəncərələri salınıb, köməkçi tikililərin inşası üzrə işlər aparılır. Məktəbin müəllim və şagird kollektivi tikiləcək məktəbin istifadəyə veriləcəyi günü səbirsizliklə gözləyir.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

## Bu il Ağstafada bol taxıl gözlənilir



Taxılçılıqda uğur qazanan rayonlardan biri Ağstafadır. Yerli fermerlər hər il yüksək göstəricilərə nail olurlar. Keçən il 10 min hektarda səpin aparan və sahələrə yüksək aqrotexniki qulluq göstərən taxılçılar gözlədiklərindən də çox məhsul götürmüşlər. Belə ki, 1640 hektar arpa səpən təsərrüfat sahibləri 44214 ton məhsul əldə etməklə hər hektarın məhsuldarlığını 25,7 sentnerə çatdırmışlar. Buğda istehsalı da nəzərdə tutulduğundan çox olmuşdur. Zəmilərdən 26846 ton buğda yığılmışdır.

Hazırda rayonun taxılçılıqla məşğul olan fermerləri cari ilin bol məhsulu üçün zəmin yaradırlar. Keçənilki göstəricilərdən razı qalan torpaq sahibləri bu ilin məhsulu üçün əkin sahələrini 10 min 275 hektara çatdırmışlar. Əkin sahələrində yaxşı çıxış alındığını deyən fermerlər məhsulu qorumaq üçün zərərvericilərə qarşı mübarizə aparırlar. Suvarmada bir qədər çətinlik olsa da, çalışırlar ki, bu işin də öhdəsindən gəlsinlər.

Rayon Aqrar İnkişaf Mərkəzindən aldığımız məlumata görə, bu il rayonda bol taxıl gözlənilir. Mütəxəssislərin apardıqları monitorinqin nəticələri bunu deməyə əsas verir. Mövcud taxıl sahələrini qorumaq və fermerlərə lazımi dəstək göstərmək üçün mərkəzdə “qaynar xətt” yaradılmışdır. Yaranan hər hansı problem yerində həll edilir.

Ağstafada taxılçılıqla məşğul olan təsərrüfatlardan biri də “Aqroservis” Məhdud Məsuliyyətli Cəmiyyətdir. Keçən il 1700 hektar sahədə taxıl əkən kollektiv yüksək göstəricilərə nail olduğu üçün bu il əkin sahələrini 2700 hektara çatdırmışdır. 2019-cu ildə hər hektardan orta hesabla 36 sentner məhsul götürən taxılçılar hazırda cari ilin bol məhsulu üçün çalışırlar. Əkində və səpində istifadə olunan bütün texnikalar təsərrüfatın özünə məxsusdur. Saloğlu qəsəbəsində, Ağgöl və Böyükkəsik kəndləri ərazilərində yaxşı çıxış alınmışdır.

Səpilən bütün növ toxumlar rayonun özündə istehsal edilir. Hazırda Ağstafada toxumçuluq üzrə bir neçə təsərrüfat fəaliyyət göstərir və həmin təsərrüfatlarda hər il yüksək reproduksiyalı taxıl toxumu əldə olunur. Belə təsərrüfatlardan biri Adil Nəsibova məxsusdur. Təsərrüfatda hər il 100 hektar sahədə taxıl yetişdirilir. Əkin sahələri əsasən kənd sakinlərinin pay torpaqlarıdır. İcarəyə götürülmüş bu torpaqlarda hər il yüksək məhsuldarlıq əldə edilir. Söhbət zamanı fermer dedi ki, keçən il hər hektardan 40 sentner taxıl götürmüşdür. Ancaq bu rəqəm onu qane etmir. Deyir ki, bu göstərici daha yüksək ola bilər. Çünki taxıl sahələrinin suvarılmasında heç bir problem yaşanmır.

Təsərrüfatda istənilən qədər texnika var. 4 traktor, 2 taxılbiçən kombayn, 1 taxıldaşıyan nəqliyyat vasitəsi əkindən tutmuş biçinədək bütün işlərin öhdəsindən gəlir.

Rayonda ən çox taxıl əkilən kəndlərdən biri Dağ Kəsəməndir. Keçən il 999 hektar sahədə taxıl yetişdirən kənd sakinləri hər hektardan 28,1 sentner arpa, 35,7 sentner buğda götürmüşlər ki, bu da əvvəlki ilə nisbətən xeyli çoxdur.

Kənd sakini Nəsib Qədiməliyevin taxılçılıqda zəngin təcrübəsi var. Keçən il 100 hektardan çox sahədə taxıl əkmiş və bol məhsul götürmüşdür. Deyir ki, taxılçılıq gəlirli sahədir. Amma torpağın strukturunu öyrənmək və aqrotexniki tədbirləri vaxtında aparmaq lazımdır. Ən əsas məsələ isə bitkinin vegetasiya dövrünü diqqətdə saxlamaqdır. Gərək taxılın gübrəsini və suyunu vaxtında verəsən.

***S.ƏLİYEV,***
***“Azərbaycan”***



# TURİZM



**Müasir infrastruktur**

Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda demişdir: "Bizim tarixi yerlərimizi, tarixi kəndlərimizi turizm zonasına çevirmək üçün praktiki addımlar atılır. Qış turizminin inkişafı, Şahdağ Xizək Kompleksinin gələcək inkişafı ilə bağlı göstəriş verilmişdir. Onu da bildirməliyəm ki, bu ilin yanvar ayında 2019-cu ilin yanvar ayı ilə müqayisədə turistlərin sayı 18 faiz artıb. Özü də turistlər üçün o qədər də cəlbedici olmayan yanvar ayında. Keçən il 11 faiz, ondan əvvəl 4 faiz, ondan əvvəl 24 faiz, ondan əvvəl 22 faiz, ardıcıllıqla. İndi ancaq 18 faiz. Ona görə hesab edirəm ki, əgər keçən il ölkəmizə 3 milyon 170 min turist gəlmişdisə, bu il daha çox gələcək".







# Turistlər Azərbaycana xüsusi maraq göstərirlər

Ölkəmizdə turizmin inkişafına göstərilən dövlət qayğısı bunu belə deməyə tam imkan verir. Çünki turizmin fəaliyyət dairəsinin genişləndirilməsi, yerli və xarici turistlərin asudə vaxtlarının səmərəli təşkili ötən il də diqqət mərkəzində olub. Azərbaycan dövlətinin bu sahəyə qayğısı sayəsində turizm prioritet istiqamətlərdən birinə çevrilib. Mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik ölkəmizdə turizmin kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman və s. növləri daha da genişləndirilib. Qəbul edilmiş dövlət proqramları, həyata keçirilən ekotədbirlər bunu şərtləndirən əsas amillərdəndir. Azərbaycanda 2002-2005-ci, eləcə də 2010-2014-cü illərdə turizmin inkişafına dair qəbul edilən dövlət proqramları, habelə ölkəyə gələn turistlərin dövlət sərhədinin buraxılış məntəqələrindən sürətli keçidinin təmin olunması və viza sisteminin asanlaşdırılması üçün müvafiq normativ-hüquqi aktların qəbul edilməsi, sürətləndirilmiş elektron vizanın verilməsi müddətinin üç gündən üç saata endirilməsi və s. Regionlarda bütün turizm xidməti obyektlərinin, eləcə də iki-üçulduzlu və "hostel" tipli yerləşdirmə vasitələrinin tikintisinə investorlar cəlb edilib. Xəzər dənizinin Azərbaycana məxsus hissəsindən səmərəli istifadə etmək məqsədilə "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017-2020-ci illər üçün Tədbirlər Planı"na əsasən bu sahədə qarşıya qoyulan məqsədlərə möhkəm zəmin yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətədavamlılığı yüksəlmişdir. Son illər müxtəlif profilli dünya standartlarına uyğun müasir turizm obyektlərinin yaradılması, ölkəmizdə keçirilən beynəlxalq görüşlər, dünyanın müxtəlif yerlərində təşkil olunan sərgi və tədbirlər həm də Azərbaycanın dünyada daha geniş tanıdılmasına xidmət etmişdir. Bu strategiya sayəsində ötən il respublikamıza gələn turistlərin sayında müsbət dinamika müşahidə olunmuşdur. Dövlət Sərhəd Xidmətinin məlumatına görə, 2020-ci ilin yanvar ayında Azərbaycana dünyanın 136 ölkəsindən 226,2 min və ya 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 18,1 faizdən çox əcnəbi və vətəndaşlığı olmayan şəxslər gəlmişdir. Gələnlərin 30 faizi Rusiya Federasiyası, 28,2 faizi Gürcüstan, 10,6 faizi Türkiyə, 5,8 faizi İran, 3,2 faizi Səudiyyə Ərəbistanı, 2,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi Hindistan, hər birindən 1,8 faiz olmaqla Ukrayna və Küveyt, hər birindən 1,4 faiz olmaqla Qazaxıstan və Pakistan, 1,1 faizi Türkmənistan, 0,9 faizı İraq, hər birindən 0,8 faiz olmaqla Böyük Britaniya və İsrail, 7,7 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olublar. Gələnlərin 71,1 faizini kişilər, 28,9 faizini isə qadınlar təşkil etmişdir.

Ölkəmizə 2020-ci ilin yanvar ayında gələnlərin sayında daha çox artım Səudiyyə Ərəbistanı (4,2 dəfə), İsrail (2,6 dəfə), Hindistan (80,2 faiz), Küveyt (73,3 faiz), Bəhreyn (69,8 faiz), Malayziya (62,5 faiz), Çin (54,0 faiz), Macarıstan (42,9 faiz), Belarus (29,5 faiz), Moldova (28,6 faiz), Yaponiya (26,6 faiz), İran (26,4 faiz), Cənubi Koreya (21,7 faiz), Ukrayna (21,1 faiz), Rusiya Federasiyası (20,4 faiz), Qazaxıstan (19,6 faiz) və Pakistan (15,3 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2020-ci ilin yanvar ayında Körfəz ölkələrindən gələnlərin sayı əvvəlki ilin eyni ayı ilə müqayisədə 21,2 faiz artaraq 34,6 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 20,4 faiz artaraq 80,9 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı isə 1 faiz artaraq 5,9 min nəfər olmuşdur.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 64,1 faizdən çoxu dəmir yolu və avtomobil, 35 faizi hava, 0,9 faizi isə su nəqliyyatından istifadə etməklə ölkəmizə gəlmişlər. Bütün bunlar onu göstərir ki. Azərbaycanda sabitlik var, gələn qonaqlarda mənalı istirahət edəcəklərinə və təhlükəsizliklərinə əminlik var. Bundan başqa, təbiət gözəldir, əlverişlidir, dünyada mövcud olan iqlimin 9-u Azərbaycandadır. Bu deyilənlərə yüksək çalar qatan həm də xalqımızın qonaqpərvərliyi, zəngin mətbəximiz və yerli tarixi abidələrdir. Qürurverici haldır ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin sessiyasında Şəki Xan Sarayı Ümumdünya İrs Siyahısına daxil edilib. Qobustan və İçərişəhərdən, Qız qalasından, Şirvanşahlar sarayından sonra bu, ölkəmizin növbəti böyük uğurudur.

Turistlərin Azərbaycana belə maraq göstərmələri onu deməyə əsas verir ki, görülən işlər, qarşıya qoyulan dövlət proqramlarının icrası və turizmin inkişafına dövlət dəstəyi sayəsində cari ildə də ölkəmizə səyahətə gələnlərin sayı çox olacaq.

*Rəhman SALMANLI,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

**Statistika**

# Ötən il ölkəmizə gələnlərin sayında artım olub

**Ötən il Azərbaycana gələn turistlərin sayı artıb. Başqa sözlə, 2019-cu ildə dünyanın 193 ölkəsindən Azərbaycana 3 milyon 170,4 min və ya əvvəlki illə müqayisədə 11,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**



Gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 22,9 faizi Gürcüstan, 10 faizi Türkiyə, 8,1 faizi İran, 3,4 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi Hindistan, 1,9 faizi Ukrayna, hər birindən 1,6 faiz olmaqla Türkmənistan və İraq, hər birindən 1,5 faiz olmaqla Qazaxıstan, Pakistan və İsrail, 1,2 faizi Böyük Britaniya, 11 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 66,6 faizini kişilər, 33,4 faizini qadınlar təşkil edib.

Daha çox artım Türkmənistan (84,2 faiz), Hindistan (66,8 faiz), Çin (62,4 faiz), Misir (55,6 faiz), Malayziya (54,9 faiz) vətəndaşları arasında qeydə alınıb. MDB ölkələrindən gələnlərin sayı 9,3 faiz artaraq 1141,5 min nəfər olub.

Diqqətçəkən məqamlardan biri də odur ki, ötən il Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 21,3 faiz artaraq 136,5 min nəfər təşkil edib.

Ekspertlərin fikrincə, Aİ (Avropa İttifaqı) ölkələrindən Azərbaycana gələn turistlərin sayının artmasının başlıca səbəbi Prezident İlham Əliyevin Aİ ölkələrinə rəsmi səfərləri və iştirak etdiyi siyasi tədbirlərdə çıxışları zamanı ölkəmizin turizm potensialını gündəmə gətirməsidir. Azərbaycan son illər Avropada müxtəlif turizm sərgilərində də fəal iştirak edir, kulinariya sərgiləri keçirir, həmin sərgilərdə ölkə barədə təbliğat aparılır. Bütün bunlar avropalıların Azərbaycana marağını artırır.

Ekspertlər onu da bildirirlər ki, Gürcüstanla müqayisədə Avropadan Azərbaycana az turist gəlir. Bunun müxtəlif səbəbləri var. Gürcüstan coğrafi baxımdan Avropaya daha yaxındır, açıq dənizə çıxışı var və dini faktor da təsir göstərir. Bütün bunlara baxmayaraq, Avropada Azərbaycan barəsində müxtəlif pozitiv məlumatların yayılması, ölkədə sabitliyin olması və digər amillər vəziyyəti xeyrimizə dəyişir.

*R.SALMANLI,*
*"Azərbaycan"*

**Xəbərlər**

# Lvovun turizm platforması azərbaycanlı sahibkarlar üçün əlverişlidir

**Lvov Ukraynanın ən çox turist qəbul edən şəhərlərindən biridir. 2019-cu ildə Lvova 2,5 milyon turist səfər edib.**



Bu barədə Dövlət Turizm Agentliyindən redaksiyamıza daxil olan məlumatda deyilir: "Lvov şəhərinin meri Andrey Sadovoy mətbuatda açıqlamasında bildirmişdir ki, ötən il Lvov şəhərinə 73 mindən çox azərbaycanlı turist səfər edib. "Lvov şəhəri turizmin müxtəlif sahələrinə iqtisadi yatırımların qoyuluşu üçün əlverişli platformadır. Azərbaycanlı sahibkarlar bu platformadan səmərəli istifadə edə bilərlər", - deyə o əlavə edib.

Mer qeyd edib ki, Lvovdan olan sahibkarların da Azərbaycana sərmayə yatırımı üçün müxtəlif layihələr üzərində işlər gedir.

# Tələbələr istehsalat təcrübəsində

**Azərbaycan Turizm və Menecment Universitetinin bakalavr pilləsində təhsil alan tələbələr istehsalat təcrübəsinə başlayıblar.**

Universitetdən verilən xəbərdə bildirilir ki, 2019-2020-ci tədris ilində 238 tələbə ölkədaxili istehsalat təcrübəsindən faydalanacaq. Müvafiq müəssisələrlə qarşılıqlı razılaşmaya əsasən ATMU tələbələrindən 228 nəfəri Bakıda, 10 nəfəri Sumqayıt, Ağdaş, Zərdab, Sabirabad, Bərdə, Goranboy və digər bölgələrdə istehsalat təcrübəsinə başlayıblar.

Bakalavr tələbələrinin peşəkar vərdişlərə yiyələnmələrinə istiqamətləndirilən istehsalat təcrübəsi mayın 25-dək davam edəcək.

# Ölkənin turizm potensialı Belarusda təbliğ olunur

**Bu günlərdə Minsk şəhərində keçirilən "Travel Connections Minsk" tədbirində Belarusun 25 turizm şirkətinə Azərbaycanın turizm məhsulları təqdim edilib.**



Görüşlərdə ölkəmizin turizm potensialı haqqında geniş məlumat verilib.

Eyni zamanda Azərbaycanın yeni turizm marşrutları nümayiş olunub.

Tədbirdə Minsklə Bakı arasında birbaşa uçuşların olması, iki ölkə arasında vizasız rejimin tətbiqi, dil baryerinin olmaması xüsusi vurğulanıb və bu imkanlardan yararlanaraq turistlərin sayının artırılması müzakirə edilib.

Qeyd edək ki, ötən il Belarusdan Azərbaycana səfər edən turistlərin sayı 2018-ci illə müqayisədə xeyli artaraq, 14841 nəfər olub.

# Tehranda simpozium keçirilib

**Tehranda İran və Azərbaycan üzrə ikinci ixtisaslaşdırılmış turizm simpoziumu keçirilib. Azərbaycanın İrandakı səfirliyi ilə "Aysan Pərvaz" şirkətinin təşkil etdiyi simpoziumda qeyd olunub ki, ölkələrimizin coğrafi yaxınlığı ikitərəfli əlaqələrin inkişafı üçün böyük imkanlar yaradır.**



Son illərdə Azərbaycan ilə İran arasında iqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, turizmdə də qarşılıqlı əlaqələr inkişaf edir.

Gözəl iqlimə, təbiətə, ləziz mətbəxə, yeni infrastruktura, tarixi abidələrə, mədəni irsə malik Azərbaycan Qərb ilə Şərq arasında körpü rolunu oynayır. Yurdumuzu qədimliklə müasirliyin sintezinin ən uyğun nümunəsi hesab etmək olar. Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir. Artıq neçə ildir ki, Bakı dünya miqyaslı idman yarışlarına və beynəlxalq tədbirlərə evsahibliyi edir. Cari ildə futbol üzrə Avropa çempionatının final mərhələsində 3 qrup oyunu və 1\4 final oyunu burada keçiriləcək.

Qəbələ şəhəri 2020-ci il üçün "İslam turizm paytaxtı" seçilib. Bununla əlaqədar bir sıra beynəlxalq səviyyəli tədbirlər, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının 11-ci konfransı da Qəbələdə keçiriləcək.

Ötən il İrandan Azərbaycana gələn turistlərin sayı 255 min nəfərdən çox olub ki, bu da 2018-ci illə müqayisədə 6,3 faiz çoxdur.

*"Azərbaycan"*

**Əməkdaşlıq**

# "Cənnətin bir güşəsi"nə səfər



**Beynəlxalq turizm təşkilatı olan PATA-nın Asiya və Sakit Okean regionu üzrə qarşılıqlı təcrübə mübadiləsi və əməkdaşlıq imkanları yaratması üzv dövlətlərin turizminin inkişafına dəstək vermək məqsədini daşıyır.**

Dünya üzrə 95 dövlət təşkilatı, 27 beynəlxalq hava yolu, liman, yüzlərlə turizm şirkəti daxil olmaqla, ümumilikdə 800-dən çox üzvə malik olan bu qurum 1951-ci ildən fəaliyyət göstərərək beynəlxalq turizm platforması rolunu oynayır.

Dövlət Turizm Agentliyinin Asiya-Sakit Okean Turizm Assosiasiyasına üzv qəbul edilməsi sevindirici haldır. Bu barədə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib: "Azərbaycana gələn turistlərin sayında nəzərəçarpan artım müşahidə etdiyimiz Asiya-Sakit okean bölgəsi bizim üçün əsas bazarlardan biridir. Əlbəttə, bölgənin turizm sektorundakı dövlət və özəl qurumlarla əməkdaşlıq edərək, eləcə də turizm sənayesi nümayəndələri üçün təlimlər keçməklə, Azərbaycan ilə bu region arasında turizm sahəsində əlaqələrin gücləndirilməsinə yönəlmiş digər potensialın yaradılması ilə məşğul olmaqla bu artıma dəstək və töhfə vermək istəyirik".

Ümumiyyətlə, Azərbaycan beynəlxalq turizm əlaqələrini genişləndirməklə həm özünün, həm də xarici ölkələrin bu sahədəki potensialını təbliğ etməkdədir. Azərbaycanla Yunanıstanın turizm mütəxəssislərinin əməkdaşlıqla bağlı müzakirələr aparması da bu məqsədi daşıyır. Yunan Turistlər və Səyahət Agentlikləri Birliyi Federasiyası Azərbaycanın turizm məkanlarının onlayn olaraq tanıdılmasını həyata keçirəcək.

Bu barədə FedHATTA-nın prezidenti Lisandros Tsilidis Azərbaycanın turizm sahəsinin nümayəndələri ilə görüşündə məlumat verib. Onun sözlərinə görə, hava səyahətinin yaxşılaşdırılması hər iki ölkədə qarşılıqlı turist axınına təsir edəcək.

Görüşdə iki ölkənin turizm mütəxəssislərinin əməkdaşlığı ilə bağlı uyğun istiqamətlərin tapılması yolları müzakirə olunub.

Azərbaycanın beynəlxalq turizm əlaqələri genişləndikcə dünyanın möcüzələrlə dolu bir kainat olmasının şahidinə çevriləcəyik. Belə ki, dünya üzərində hələ də tam olaraq tanıdılmayan əfsanəvi gözəllikləri gözlərimizə köçürmək imkanı qazanacağıq. Məsələn, maraqlı tarixi, rəsm sənətini xatırladan, mənzərəsi ilə göz oxşayan, sirlər adası adlandırılan, bir vaxtlar Braziliyanın ən təhlükəli cinayətkarlarının həbsxanası kimi nəzərdə tutulmuş, zümrüd suyu, vəhşi təbiəti, ağ qumlu çimərlikləri ilə məşhur Fernandu-di-Noronya arxipelağının 21 adasını da görmək nəsib olacaq. Bu, həmin adalardır ki, 1988-ci ildə milli dəniz parkı və qoruq kimi elan edilib. Mühafizəni təmin etməkdən ötrü gündə yalnız 420 ziyarətçinin bura gəlməsinə icazə verilib. Hazırda bu vulkanik mənşəli adalardan ibarət olan arxipelağa turistlərin axını çox olsa da, əvvəllər belə deyildi.

Atlantik okeanın bu gözoxşayan adası turistlərin çoxluq təşkil etdiyi yerlərdən biri kimi tanınır. Turistlər burada su idman növləri ilə məşğul olmaqla yanaşı, adanın təravətli havasında gəzintiyə çıxa, günəşin dəniz suları ilə əsrarəngiz vəhdətinin seyrindən həzz ala bilərlər. Yolu buradan düşənlər adaları "cənnətin bir güşəsi" də adlandırırlar.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

**Gəzməli, görməli yerlərimiz**

# Göygöl qışda da diqqətçəkəndir

**Respublikamızın dağlıq və dağətəyi rayonlarından olan Göygöldə də qışın bu vədəsində yerli və xarici turistlərə rast gəlmək mümkündür. Hazırda rayonun elə bir kəndi yoxdur ki, qış turizmi ilə əlaqədar orada istirahət edən olmasın.**



Turistlər ən çox Göygölə yaxın ərazilərdə yerləşən kəndlərdə istirahətə üstünlük verirlər. Aşıqlı, Yeni Zod, Toğanalı, Topalhəsənli, Üçbulaq, Mixaylovka, Şəhriyar və sair kəndlərdə turistlər çox asanlıqla Göygöl Milli Parkına səyahətə çıxır, istirahətlərini qarlı ərazilərdə keçirirlər.

Rayonda ən çox turist qəbul edən kəndlərdən biri də Gəncədən cəmi 10 kilometr məsafədə yerləşən Aşıqlıdır. Bu yaşayış məntəqəsində turistlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Yeni çəkilmiş müasir yol çox rahatdır. Yazda-yayda bu dağlarda bitən dərman bitkilərinin, müxtəlif meyvələrin, eləcə də kənd məhsullarının satışı turistlər tərəfindən məmnunluqla qarşılanır. 2350 nəfər sakini olan bu kənddə 400-dən çox ev var. Kənd Hacıkənd və Göygölə gedən yolun üstündə olduğundan turistlər burada qalmağa daha çox üstünlük verirlər. Odur ki, kənd sakinləri ilk növbədə turistlər üçün əlverişli şərait yaratmaq istəyirlər. Onlar çalışırlar ki, bu yolla daha çox qazanc əldə edə bilsinlər.

Aşıqlı kəndinin sakini Lamiyyə Əliyeva deyir ki, turistlərin qəbulu üçün böyük imkanları var. Həyətində iki ev inşa etdirib və bu evlərdə yaradılan şərait imkan verir ki, eyni vaxtda 20 nəfərədək turisti qəbul etsinlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# "Tikmədim özüm qalam, tikdim ki, izim qala"

**Dünyaya gələn hər bir insanın öz ömür yolu olur. Kim məqsədinə çatmaq üçün bu yolla düz gedərsə, axırı da yaxşı olar. Calal Qurbanovun da yaşadığı 85 illik həyat yolu mənalı keçib. Ona görə ki, zəhmətə qatlaşıb, qurub-yaradıb, xeyir əməllər sahibi olub. İxtisasca inşaatçı olan Calal kişi keçdiyi şərəfli ömür yolundan danışmağa haqqı çatan ağsaqqallardandır.**



Calal Qurbanov 1 mart 1935-ci ildə qədim Bərdə şəhərində dünyaya gəlib. Uşaqlıqdan oxumaq, təhsil almaq istəyi güclü olub. Orta məktəbi əla qiymətlərlə başa vuran Calal Qurbanov 1957-ci ildə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil olsa da, hiss edib ki, neftçi olmaq onun üreyincə deyil, istəyi inşaatçı kimi tikib yaratmaqdır.

Ürəyindəki bu arzusu Calal Qurbanovu rahat buraxmırdı. Bu səbəbdən indiki İnşaat və Memarlıq Universitetində qiyabi təhsil alır. Təyinat müddəti başa çatdıqdan sonra isə - 1960-cı ildən inşaatçı kimi əmək fəaliyyətinə başlayır. Sənaye Tikinti Nazirliyinin 2 nömrəli Dəmir-Beton Zavodunda baş mexanik vəzifəsinə təyin olunur. O dövr tikinti işlərinin icrası indikindən fərqli idi. Tikinti üçün lazım olan bütün dəmir-beton konstruksiyalar bu zavodda hazırlanırdı. Ona görə də Calal Qurbanovun işi başından aşırdı. O, bu barədə belə deyir: "İşə səhər tezdən gedib evə gecə gəlirdim. Uşaqlara bir ata kimi istədiyim qayğını göstərə bilmirdim. Ancaq peşman deyildim. Çünki faydalı işlə məşğul idim. İndi Bakıda gəzərkən, ölkənin bölgələrinə səyahət edərkən tikdiyim obyektləri görəndə qürur hissi keçirirəm. Necə deyərlər: "Tikmədim özüm qalam, tikdim ki, izim qala".

Bu qocaman inşaatçının xatirələri çox maraqlıdır: "Bəlkə səmimiyyətimə inanmayacaqsınız, ancaq bu, olan işdir. Kənd Tikinti Nazirliyində trest rəisi işləyirdim. Onu da deyim ki, həmin dövrün qabaqcıl mütəxəssislərindən olmuşam, bu tresti mən yaratmışdım. Bunun üçün gecə-gündüz çalışmışdım. Təkcə baş müəssisə yox, onun bölgələrdəki rayonlararası 18 idarəsi də mənim zəhmətimin nəticəsi idi. Bir gün məni nazirliyə çağırdılar. İşimdən razılıq edib dedilər ki, səni nazir müavini təyin edirik. Etiraz etdim. Təəccübləndilər, axı o vaxt kim belə vəzifədən imtina edərdi?! Özü də həmin vəzifəni tutmaq üçün nə qədər namizəd var idi. Ərizə yazıb trest rəisi vəzifəsindən də çıxdım. Bunu eşidənlər məni qınadı. Ancaq indi də o fikirdəyəm ki, düzgün qərar qəbul etdim. Rahat kabinetdə oturub kimlərəsə göstəriş verməyi sevmirəm. Tək istədiyim işin üstündə olub, onun keyfiyyətlə görülməsinə nəzarət etməkdi. Ən əsası da gördüyüm iş başa çatanda ondan aldığım zövqdür".

"Yaxşı işçi işsiz qalmaz", - deyib sözünə davam edir: - Yuxarılar biləndə ki, işdən çıxmışam, böyük söz-söhbət oldu. Araşdıranda isə məlum oldu ki, işdən çıxmağımın səbəbi nazir müavini təyin olmaqdan imtina etməyimdir. Bu, çoxlarını təəccübləndirdi. Nə isə, uzun sözün qısası, məni SSRİ Nəqliyyat Tikinti Nazirliyinin Bakı Körpü və Tunel Dəmir-Beton Zavoduna direktor təyin etdilər. Həmin vaxt zavod qarşıya qoyulan vəzifələri yerinə yetirə bilmirdi. Belə ki, dəmir-beton konstruksiyalar tikinti obyektlərinə vaxtında çatdırılmadığı üçün işlər plan üzrə icra edilmirdi. Arada böyük fasilələr yaranırdı ki, bu da tikintidə işlərin ləngiməsinə səbəb olurdu. Belə bir çətin vəziyyətdən çıxmaq üçün bütün qüvvəmi sərf edib çalışdım. Qısa zamanda tikinti sahələri vaxtında dəmir-beton konstruksiyalarla təmin olundu və tikintidə yaranan fasilələrə son qoyuldu".

Onu da bildirək ki, Calal Qurbanov bir dəfə də yüksək vəzifədən imtina edib. Bu barədə özü belə deyir: "Bir gün məni təcili Bakı Şəhər Partiya Komitəsinə çağırdılar. Dedilər ki, indi Xətai adlanan rayonun icraiyyə komitəsinə sədr təyin edilirsən və sabah Mərkəzi Komitədə birinci katibin qəbulunda olmalısan. Etiraz etdim. Çünki inşaatçı peşəsindən ayrılmaq istəmirdim. Amma qarşıma o dövr üçün çox ciddi sayılan tələb qoydular. Dedilər ki, sən kommunistsən, buna görə də partiyanın tapşırığını yerinə yetirməlisən. Beləliklə, 1983-cü ildən 1991-ci ilə kimi həmin vəzifədə çalışdım. Daim insanlarla ünsiyyətdə olub onların qayğı və problemləri ilə maraqlanırdım. 1990-cı ildə isə bir daha başa düşdüm ki, insanlar çəkilən zəhməti, görülən işi, xeyirxahlığı unutmurlar. Ali Sovetə deputat seçilmək üçün namizədliyimi irəli sürdüm. Rayon sakinləri ilə görüşlərdə hər yerdə hörmət gördüm. Dedilər ki, sizə səs verəcəyik. Sözlərini də tutdular. 1990-1995-ci illərdə parlamentin deputatı oldum".

Calal Qurbanov ötən əsrin 70-80-ci illərində görülən işləri xarakterizə edərək deyir: "Həmin illər SSRİ-nin başqa yerlərində necə olduğunu deyə bilmərəm. Amma Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o dövr respublikamız üçün əsl quruculuq illəri olub. Bir inşaatçı kimi deyə bilərəm ki, keçən əsrin 70-ci illərində Azərbaycanda sovet hakimiyyətinin mövcud olduğu bütün dövrlərdən çox tikinti işləri həyata keçirilib. Təkcə özüm Ulu Öndərin rəhbərliyi altında müxtəlif təyinatlı onlarca sənaye, mülki və sosial obyektin tikintisini həyata keçirmişəm".

Calal müəllim həmişə yüksək vəzifələrdə çalışsa da, heç vaxt ədalı, təkəbbürlü məmur olmayıb. Tabeliyində olan işçilərə qarşı tələbkar olduğu qədər də qayğıkeşlik göstərib. Onun insanlığından, qayğıkeşliyindən bir epizodu oxucuların diqqətinə çatdırmaq istəyirik: Calal Qurbanov həmişə tikinti sahəsində rəhbər vəzifələrdə çalışsa da, uzun illər özünün evi olmayıb, kirayədə qalıb. Hər dəfə mənzil bölgüsü zamanı işçilərini qabağa salıb. Hətta bir neçə dəfə ona çatacaq mənzili başqalarına verib.

Ömrünün 85-ci baharını yaşayan Calal Qurbanov bu gün də sevimli peşəsi ilə məşğuldur. Hazırda Bakı Tikinti və Şəhərin İnkişafı Şirkətində direktorun birinci müavini vəzifəsində işləyir. Təcrübəli inşaatçı şirkətdə çalışan gənclərdən öz dəyərli məsləhətlərini əsirgəmir. Onlara həmişə deyir ki, inşaatçı peşəsi müqəddəsdir. Əgər inşaatçı oldunsa, bu peşəyə xəyanət etmə, vicdanla çalış. Çünki sənin tikdiyin obyektlər xalqa xidmət edir, elə qiymətini də xalq verəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

**71 yaşına qədəm qoymuş əfsanəvi dəniz şəhəri - Neft Daşları illər keçdikcə qocalmır, əksinə, cavanlaşır. Həm də mədən-şəhərin dəyişən, gözəlləşən təkcə mərkəzi hissəsi deyil. Onun görünüşü hər tərəfdə müasirləşir. Belə ki, Neft Daşlarında qurğular və avadanlıqlar təzələnir, yeni özüllər quraşdırılır, estakadalar, estakadayanı meydançalar, gəmilər üçün yanalma körpüləri inşa edilir.**







# 32 il sərt dalğalar qoynunda

Lakin tikmək, qurub-yaratmaq məsələnin yalnız bir tərəfidir. Böyük zəhmətlə başa gələn bu infrastrukturu qorumağın, lazım gəldikcə təmir edib saz vəziyyətdə saxlamağın özü də tikməkdən az vacib olan iş deyil.

Neft Daşlarında təcrübəli mühəndis Murad Adıgözəlovla söhbətimiz də əsasən bu mövzuda oldu. Bacarıqlı mütəxəssis 32 ildir dəniz şəhərindədir. Həmişə də Dənizdə Neft-Mədən Hidrotexniki Qurğular Sahəsində işləyib. Əmək fəaliyyətinə mühəndis kimi başlayıb, sonra usta, baş usta vəzifələrində çalışıb. 2007-ci ildən sahə rəisinin müavinidir.

- Hər bir tikilinin, eləcə də qurğu və avadanlığın xırda, cari, yaxud əsaslı təmirə ehtiyacı olur. Bəzən ən kiçik nasazlıq belə çox vacib bir işi ləngidir, hətta dayandıra bilir. Odur ki, haradansa təmirçilər çağırmaq lazım gəlir. Bunun özü də xeyli vaxt aparır. Çalışdığım sahə məhz o məqsədlə fəaliyyət göstərir ki, Neft Daşlarında bu hallar baş verməsin. Biz qurğu və cihazların, digər infrastrukturun daim işlək vəziyyətdə olmasına çalışırıq, ortaya çıxan nasazlıqları dərhal aradan qaldırırıq.

Murad Adıgözəlov söhbətinə davam edərək bildirir ki, "Neft Daşları" NQÇİ-nin balansında onlarca sualtı dik və dayaq boruları, gəmilərin yan alması üçün körpü və meydançalar var. Onların fəaliyyətinə nəzarətdən əlavə, sahənin əməkçiləri vaxtaşırı hər iki tərəfdən estakadalara bərkidilmiş məhəccərlərin vəziyyətini də yoxlayırlar. Çünki Xəzərin qoynunda tez-tez güclü küləklər əsir və məhəccərlərin, eləcə də digər infrastrukturun möhkəmliyi çox vacibdir. Özüllərdə aparılan bərkitmə işləri də eyni dərəcədə zəruridir.

İlk baxışdan bu işlər asan görünə bilər. Əslində isə onların hamısı əməyin təhlükəsizliyi qaydalarına ciddi riayət olunmaqla görülməlidir. Sahədə çalışan fəhlə və mütəxəssislərin işinin ən çətin və məsuliyyətli tərəfi də məhz budur.

Beləliklə, sahə rəisinin müavini ilə söhbətimiz dəniz inşaatçılarından, onların ekstremal şəraitdə apardığı əməliyyatlardan, eləcə də iş və məişət şəraitindən düşür. Murad Adıgözəlov deyir ki, sahədə çalışan 43 nəfərin hamısı öz üzərinə düşən işin peşəkarıdır.

Yeri gəlmişkən, sahə əməkçilərinin 10 nəfəri mühəndis-texniki işçi, 11 nəfəri qaynaqçı, 22 nəfəri çilingərdir. Onlar da növbə ilə işləyirlər, yəni bir ayın 15 gününü dənizdə, 15 gününü isə quruda, öz ev-eşiyində olurlar. Həmsöhbətimiz sahə rəisi Zahir Bəylərovun da bir-iki gün əvvəl dənizdən Bakıya döndüyünü qeyd etdi. Böyük usta Asim Hüseynov, Murad Mütəllimov, Şəmsi Rzayev, Orxan Lətifov, Elxan Yolçuyev, Sabir Mustafayev, İlham Bekarovun, digər bacarıqlı çilingər və qaynaqçıların adını çəkdi.

Söhbətimizin iştirakçısı olan sahə əməkçiləri digər həmkarlarının - Arif Əliyevin, Elçin Əlfəndiyevin, Zaur Babayevin, Barat Quliyevin, Valeh Şahvələdovun, Aqil Mahmudovun və başqalarının da yüksək peşəkarlığının işə böyük kömək göstərdiyini bildirdilər.

Dəniz inşaatçıları qəhrəman Xəzər neftçilərinin ayrılmaz bir dəstəsidir. Murad Adıgözəlovun şəxsində onların hər birinin fədakar əməyinin, keçdiyi çətin və şərəfli həyat yolunun şahidi olmaq mümkündür. Onilliklərdir dənizin qoynunda bərkdən-boşdan çıxan, lakin bu gün də Xəzərdən ayrılmağı ağlına gətirməyən, hətta ona quruda fəaliyyət göstərən müəssisələrdə sanballı vəzifədə çalışmaq təkliflərindən boyun qaçıran bu insan öz işindən-sənətindən qürur duyur. Daim çalışmaq, işlədiyi sahəyə aid yenilikləri öyrənmək, dünyagörüşünü genişləndirmək ona xas olan başlıca xüsusiyyətlərdir. Sözarası deyir ki, Xəzər neftçisinə öz üzərində işləmək üçün geniş imkan var. Təbii ki, dənizdə əmək növbəsində olarkən bütün sutka boyu iş başında dayanmır. Onun fasilələri, istirahət saatları da var. Neftçilərin çoxu bu fürsətdən faydalanır, mütaliə edir, bilik və bacarıqlarını artırırlar.

Neftçi-inşaatçının qürur duyduğu bir tükənməz mənbə də var - bu da onun ailəsidir. Ömrünün yarısını Xəzərdə, sərt dalğalar arasında keçirən M.Adıgözəlov ailəsinin isti ocağını qoruyan, övladlarının tərbiyəsində böyük zəhməti olan həyat yoldaşı Gülşad xanıma minnətdarlıq edir. Bir də oğlu Zaurun onun yolunu davam etdirməsini, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu olaraq "Abşeronneft"də bacarıqlı mühəndis kimi ilk uğurlu addımlarını atmasını özünün bir ata kimi xoşbəxtliyi sayır. "Bütün bu xoşbəxtliyi - geniş mənada xoşbəxtliyi mənə Neft Daşları, həmişə taleyimin töhfəsi saydığım peşəm-sənətim bəxş edib", - deyir.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## Dünya olduğu kimi

# Dünyanı göstərən "sehrli güzgü"

**Uşaqlıqda dinlədiyimiz nağıllarda sehrli güzgü haqda eşitmişdik. Hələ qədim zamanlardan insanlar surəti əks etdirən səthlərə heyranlıq duyur, onların müəyyən fövqəlgücləri olduğunu düşünürdülər.**



Yəqin məhz bu düşüncədən, yaxud sadəcə xəyal etdikləri üçün sehrli, danışan güzgü haqda nağıllar, hekayələr qururdular. Amma o vaxt heç inanmazdılar ki, bu xəyal nə vaxtsa gerçək olacaq, insanlar evlərində oturub "sehrli güzgü", "danışan qutu" vasitəsilə dünyanı görə, izləyə biləcəklər.

Bu dəfə dünyanın düzənini dəyişən, bəşəriyyətin ən böyük, mühüm kəşflərindən biri olan televizorun yaranmasından söhbət açacağıq.

Televizor yunanca "tele" (uzaq) və latınca "visio" (gör) sözlərinin birləşməsindən əmələ gəlib, "uzaqdan görmək" anlamını daşıyır. İlk televiziya sistemləri mexaniki idi və yalnız təsviri göstərirdi. Lakin alman mühəndisi Paul Nibkov təsvirin məsafəyə ötürülməsi ideyasının mümkünlüyünü nəzəri olaraq irəli sürdü və 1866-cı ildə ideyasını patentləşdirdi.

1873-cü ildə V.Smit tərəfindən icad edilən fotoeffekt televiziyanın kəşfi yolunda növbəti uğurlu addım oldu. Bu kəşfdən ruhlanan Nibkov ideyasını gerçəyə çevirmək üçün daha bir addım atdı. O, 1884-cü ildə skanlaşdırılan diski ixtira etdi. Əksər mənbələrdə elektron televizor patentinin Boris Rozinqə məxsus olduğu qeyd olunur. İlk hərəkətsiz təsvir yayımı 1911-ci ildə bu alimin adı ilə bağlansa da, əsas ixtiraçı kimi şotland mühəndis Con Logi Berd göstərilir.

## Tikiş iynəsi, velosiped lampası, konserv qutusu

13 avqust 1898-ci ildə Şotlandiyanın Helensburq şəhərində anadan olan və burada böyüyən Con Logi Berd uşaqlıqdan elektriklə maraqlanırdı. Hələ uşaq ikən evinin arxa bağçasında neftlə işləyən generatordan əldə edilən elektriklə bütün evi işıqlandırmışdı. Bu, şəhərdə axşamlar işığı yanan tək ev idi. 12 yaşında olarkən isə gələcək ixtiraçı evdə balaca bir "telefon stansiyası" yaradaraq çöldəki dostlarıyla telefonla danışa bilirdi. Berd gənclik yaşına çatanda televiziya ilə bağlı aparılan araşdırmalardan xəbərdar idi və gecə-gündüz bu sahədə çalışırdı.

Böyüyəndən sonra o, Klayd vadisindəki elektrik şirkətində iş tapdı. Burada bir müddət çalışsa da, sağlamlıq problemləri səbəbiylə işdən ayrılmaq məcburiyyətində qaldı. Bir neçə kiçik işdə çalışdıqdan sonra 1922-ci ildə vətəninə geri dönərək təmirçiliyə başladı. Burada qarışıqlıqdan uzaq bir mühitdə özü ilə baş-başa qalaraq, xəyalını qurduğu görünüş və səsi elektronik şəkildə daşıma fikri üzərində işə başladı.

Berdin növbəti fantaziyası ilk televizorun gerçək simasını müəyyən edir. İlk əvvəl sadə bir tikiş iynəsi, velosiped lampası və bir konserv qutusu ilə nəsə etməyə çalışan Berd insanlara xülya kimi görünən bu fikir üzərində getdikcə artan həyəcanla işləməyə davam edir. Əlindəki az imkanlarla çox şey bacara bilməyəcəyini anladıqda isə texnoloji imkanlara daha rahat çata biləcəyi Londonun Soho bölgəsinə köçür və bir laboratoriya qurur.

Burada ilk olaraq bir çay qutusu üzərinə yerləşdirdiyi, tikiş iynəsi, kəsilən karton və biskvit qutusundan ibarət olan qurğusunu işlətməyi bacarır və yandakı sifət görünüşünü meydana gətirir. 1925-ci ildə o, bəşəriyyətə yeni bir düzən gətirəcək cihazı nəhayət ki, kəşf edə bilir: Biskvit qutusu və kartondan ibarət qutunu tikiş iynəsi ilə "tikib", içərisinə avadanlığını yerləşdirir və uzaq məsafəyə ötürülən sifət görünüşünü "tutmağı" bacarır.

Gənc ixtiraçı 1925-ci il iyunun 25-də bu kəşfini patentləşdirir.

Berdin müvəffəqiyyəti qısa müddətdə böyük maraqla qarşılanır və "Televisor" adını verdiyi icadını ilk dəfə 26 yanvar 1928-ci ildə Krallıq İnstitutuna tanıdır. Bundan bir il sonra o, ilk görünüş yayımını reallaşdırmağı bacarır. Nəticədə, 1929-cu ildə ilk televiziya stansiyasını qurur və o dövr radio yayımı ilə məşğul olan BBC ilə razılaşaraq, televiziya verilişləri hazırlamağa başlayır. İlk mərhələdə məhdud sahədə yayımlanan BBC 1930-cu ildə Amerikada, habelə İngiltərədə rəsmi şəkildə yayıma başlayır. Tezliklə televiziya bütün dünyaya yayılır. Londonda 20 mini əhatə edən yayımın hesabına Con Logi Berd karyerasının zirvəsinə çatır. O, 14 iyun 1946-cı ildə vəfat edir.

## İlk pultlu televizor

Dünyada ilk televizor 3 iyul 1928-ci ildə ABŞ-da satışa çıxarılıb. Bu televizorun qiyməti 75 dollar idi və iki adi işçinin orta əmək haqqına bərabər idi.

Lakin bu televizor tamamilə mexaniki bir sistemlə işləyirdi. Televizorların elektromaqnetik sisteminin dəyişdirilərək indiki vaxtda istifadə etdiyimiz balonlu televizor halına gəlməsi isə Filo Teylor Farnsvorzun adı ilə bağlıdır.

Hazırda balonlu televizorların hamısı "CRT" adlandırılan bir texnologiyaya malikdir. Ekranda görüntü yaradan bu sistem yüz minlərlə lampanın bir araya gətirilməsi deməkdir. CRT ekranların səthi yüz minlərlə kiçik nöqtədən meydana gəlib. Bunlara "piksel" deyilir. Piksellərin hər biri ayrı şəkildə işıqlandırıldığı və fərqli rəng meydana gətirə bildiyi üçün onların müəyyən bir nizamda yanması görüntünü əmələ gətirir.

1933-cü ildə amerikalı mühəndis rus mənşəli Vladimir Zvorikin televizorun əsas hissələrindən biri olan ötürücü qurğunu ixtira edir. 1937-ci ildə televizorun inkişaf prosesinə ingilislər də qoşulur. Onlar elektron-şüa borulu televizor yaradırlar. 1939-cu ildə ABŞ mühəndisləri A.Roze və X.Yoms tərəfindən televiziya ötürücü trubkası (optikon) ixtira edilir.

1940-cı ildən başlayaraq rəngli televizor layihəsi üzərində işlər sürətlə davam etdirildi. Bundan təxminən 10 il sonra ABŞ-da ilk rəngli televizor satışa çıxarıldı. Artıq 50-ci illərin sonlarında 10 amerikalıdan 9-u televizora baxmaq imkanına sahib idi. Azərbaycanda isə ilk televiziya verilişi 1956-cı il fevralın 14-də efirə çıxdı.

Televizorun kanallarını kənardan dəyişməyə imkan verən "pultu" isə 1955-ci ildə ABŞ alimi Euqen Polley kəşf edib. Onun düzəltdiyi ilk avadanlıq televizora gözlə görünən işıq vasitəsilə əmrlər verirdi. Buna görə də evdə işıq yananda televizor işləyə bilmirdi. 1980-ci illərdə isə həmin pultlar ultrasəs dalğaları ilə işləməyə başladı.

## Dünyanın ən böyük televizoru

Qeyd edək ki, ABŞ-ın "Dallas Cowboys" klubunun stadionunda yerləşdirilən dördekranlı televizor dünyanın ən böyük televizoru kimi "Ginnesin Rekordlar Kitabı"na düşüb. "Mitsubishi Electronic" şirkəti tərəfindən layihələndirilərək istehsal olunan və stadionun ən yüksək yerindən asılmış bu televizorun çəkisi 600 ton, ekranın ümumi sahəsi 1058 kvadratmetrdir.

Təbii ki, zaman dəyişdikcə, texnika və texnologiya inkişaf etdikcə televizor sahəsində də xeyli yeniliklər baş verdi. Belə ki, əvvəllər ağ-qara televizorlar ilə kifayətlənməli olurduqsa, indiki dövrümüzdə günümüzü müasir televizorlarsız təsəvvür etmək çətindir. Bu cihazlar da dünya inkişaf etdikcə müasirləşdi. Zamanla yekə televizorlar nazik plazma və LCD, sonra LED ekranla əvəz edildi. Müasir televizorların da funksiyaları gündən-günə təkmilləşir. Artıq müasir Smart televizorlar klaviatura, siçan, "magic motion" pultu, səs və hətta jest ilə idarə edilmə funksiyasına malikdir. 3D funksiyası isə görüntünün izləyiciyə fəzada üçölçülü şəkildə çatdırılmasına imkan yaradır.

Ancaq şirkətlər bunlarla da kifayətlənmir, daha maraqlı xidmətlərin göstərilməsi üçün daim yeniliklər edir. Məsələn, 2018-ci ildə "LG" şirkəti dünyada ilk olaraq ekranı adi qəzet kimi bükülən televizoru təqdim etdi. Rəsmi təqdimatda bildirildi ki, televizor lazım olmayanda və ya onu harasa aparmaq istəyəndə asanlıqla büküb əl çantasına qoymaq olar. Yenilik satış üçün nəzərdə tutulmasa da, konsept olaraq gələcəkdə belə televizor istehsalına işarədir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Bilirsinizmi?



- Marsdakı Niks Olimpik vulkanının hündürlüyü 20 kilometrdən çoxdur. Marsdakı dağların hündürlüyü 20-25 kilometrə çatır;
- Dünyada ən bahalı hobbi - bağçılıq hesab olunur;
- Dünyanın bütün suları açıq okeana tökülsə, suyun səviyyəsi 3 sm qalxar;
- Pinqivin 3 metr hündürlüyə hoppana bilər;
- Bütün qütb ayıları solaxay olur;
- Soğan soyarkən saqqız çeynəmək gözün yaşarmasının qarşısını alır;
- "Ginnesin Rekordlar Kitab"ı kitabxanalardan ən çox oğurlanan kitab rekordu qazanıb;
- Körpənin doğulduğu an onun başının çəkisi ümumi çəkisinin dörddə birini təşkil edir;
- Günəş enerjisinin 19 faizi atmosferdə udulur, 47 faizi Yerə düşür, 34 faizi isə kosmosa qayıdır. Tam Günəş tutulması 7,5 dəqiqədən çox çəkmir; tam Ay tutulması isə 104 dəqiqə davam edir.

# Ölümdən sonra həyat var?

**Almaniyalı həkim və psixoloqlar ölümdən sonra həyatın olması qənaətinə gəliblər. Tibb professorları ölümün bir addımlığında qalan xəstələr üzərində aparılan araşdırma zamanı bu nəticəni təsdiqləyiblər. Həmin xəstələr 20 dəqiqə ölü vəziyyətdə qaldıqdan sonra həyata geri qaytarılıblar.**



Araşdırma könüllü qatılan 900 adam arasında 4 il davam edib. Bu zaman "epinefrin" və "dimethytryptamine" dərmanlarından da birgə istifadə olunub. Həmin dərmanların ölümlə yenidən canlanma arasında bədəni qoruduğu bildirilir.

Xəstələr əvvəlcə kliniki ölüm, sonra koma vəziyyətinə gətiriliblər. Araşdırmada iştirak edən könüllülərin xatırladıqları şeylər, kiçik fərqlər istisna olmaqla, eynilik təşkil edib.

Demək olar ki, bütün könüllülər istilik, rahatlıq, güclü işıq və ruhun bədəndən ayrılmasını hiss ediblər. İştirakçılar xristian, yəhudi, müsəlman, ateist və induizm dininə sitayiş edənlərdən ibarət olub.

# Şaxtaçının bağından Roma dövrünə aid mozaikalar tapıldı

**Türkiyənin Zonquldak bölgəsinin Kadıoğlu kəndində yaşayan 75 yaşlı təqaüdçü Nizaməddin Oral 12 il əvvəl bağçasında Roma dövrünə aid yaşayış məskəni tapmışdı.**



İxtisasca şaxtaçı olan N.Oral 2008-ci ilin iyun ayında bağındakı istixananın özülünü möhkəmləndirmək üçün qazıntı işləri aparan zaman torpağın altında tarixi mozaikalar tapır. Bu barədə lazımi orqanlara məlumat verir. Elə həmin ilin yayında Mədəniyyət və Turizm Nazirliyinin razılığı ilə Ereğli Muzey Müdirliyi tərəfindən bağda arxeoloji qazıntılara start verilir. 8 il davam edən qazıntı işləri nəticəsində həndəsi naxışlı, müxtəlif heyvan mübarizələrini, ov səhnələrini, erosların rəqsini, bir kişinin qadını bıçaqladığını əks etdirən tarixi mozaikalarla zəngin 3 otaqlı ferma aşkarlanır. Bu yaşayış sahəsinin eramızdan əvvəl 250-260-cı illər Roma dövrünə aid olduğu müəyyən edilir.

N.Oralın 3 mərtəbəli evi və 2160 kvadratmetrlik ərazisi müsadirə edilir, qazıntı işlərinin aparıldığı sahə isə 2016-cı ildə torpaqla örtülür, divarların üzərinə örtüklər salınır.

Dörd ildir buranı mühafizəçi kimi qoruyan Nizaməddin bəy qədim yaşayış məskəninin muzeyə çevrilərək turizm obyekti kimi fəaliyyət göstərməsini arzulayır: "Bu qədim yer 2008-ci ildə tapıldı. Dövlətimizə bildirdik və dərhal iş başladı. Uzun müddət burada işlədilər, sonra bağlayıb getdilər. Artıq örtüklər köhnəlib, divarlar çökür, heyvanlar buranı otlağa çevirib. Ereğli Muzey Müdirliyinə məlumat verdim. Gəlib baxdılar, amma yenə heç bir xəbər yoxdur. Buranın açıldığını, açıq səma altında muzey kimi fəaliyyət göstərdiyini görə bilsəm, çox şad olaram. Bura çoxlu turistlər gələcək, nəticədə ölkəm faydalanacaq".

